**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

# UNEC BİZNES MƏKTƏBİ

**UNEC Biznes Məktəbinin direktoru**

**________________________________**

**"___________________" (imza)**

**"______"_______________ 2023-cü il**

**"Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi"**

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYA İŞİ

**İxtisasın şifri və adı: 060409_Biznesin idarə edilməsi**

**İxtisaslaşma: Menecment**

**Qrup: A4/3-21**


**Magistrant:**
**Süleymanova Zümrüd Qəhrəman qızı**
**______________imza**

**Elmi rəhbər:**
**h.ü.f.d., dos. Qədiməliyev Araz Raquf oğlu**
**__________________imza**

**Proqram rəhbəri:**
**i.f.d. Şəfizadə Elnurə Rafiq**
**_____________imza**

**Kafedra müdiri:**
**i.e.n., dos. Məmmədova Sevər Mömin**
**__________________imza**


**B A K I – 2 0 2 3**

## SAHİBKARLIQ FƏALİYYƏTİ SUBYEKTLƏRİNİN HÜQUQLARININ VƏ QANUNİ MƏNAFELƏRİNİN MÜDAFİƏSİ


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Qanunlar sahibkarlıq fəaliyyəti zamanı yaranan münasibətlərin tənzimlənməsinə, sahibkarların fəaliyyətinə maneə törədən səbəblərin aradan qaldırılmasına və bu sahə ilə bağlı digər münasibətlərin nizama salınmasına xidmət etməklə barəbər, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərini müdafiə edir, onların fəaliyyət istiqamətlərini tənzimləyir. Bu sahədə mövcud olan bir sıra çatışmazlıqlar qeyd olunan məsələlərin tədqiqatının əsaslarından biridir. Qanunvericilikdəki dəyişiklik və yeniliklər, iqtisadi mühitdə bazar münasibətlərinin formalaşma prosesinin davam etməsi, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi mexanizmlərinin yaradılması və inkişaf etdirilməsi baxımından – sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi məsələlərinin tədqiqi, kompleks hüquqi təhlili xüsusilə əhəmiyyətli və aktualdır.**

**Tədqiqatın məqsədi: Qanunvericilik aktlarına və hüquq nəzəriyyəsinə əsasən sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsinin geniş və kompleks şəkildə hüquqi araşdırılması tədqiqatın əsas məqsədidir.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiya işində həm ümumelmi metodlardan (sistemli-funksional yanaşma, formal-məntiqi (analitik), tarixi yanaşma metodu), həm də hüquq elmləri metodlarından (müqayisəli hüquqşünaslıq, sistemli təhlil, nəzəri, normativ və praktiki materialların ümumiləşdirilməsi, induksiya və deduksiya) istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Dissertasiyanın informasiya bazasını mövzu ilə bağlı elmi əsərlər, həm əvvəllər qəbul edilmiş, həm də hazırda qüvvədə olan mülki və sahibkarlıq fəaliyyəti ilə əlaqədar münasibətləri tənzim edən qanunvericilik aktları, o cümlədən məhkəmə təcrübəsinin nəticələri, Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi, digər normativ-hüquqi aktlar, habelə Azərbaycan Respublikasının Konstitusiya və Ali Məhkəmələrinin qərarları olmaqla internet resursları təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: Milli hüquq elmimizdə sahibkarlıq fəaliyyəti və onun subyektlərinin istehsal fəaliyyəti, həmçinin hüquqi statusu ilə bağlı müxtəlif nəzəri və praktiki məsələləri özündə əks etdirən elmi əsərlər olsa da, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsinə aid elmi əsərlər və tədqiqatlar məhdudiyyət təşkil edir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Dissertasiyanın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- **Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi probleminin xarakterik xüsusiyyətləri müəyyən edilmişdir;**
- **Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin nəzəri, təcrübi problemlərinə müvafiq təkliflər verilmişdir;**
- **Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi kontekstində mübahisələrə alternativ həll istiqamətləri verilmişdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Əldə olunan nəticələr növbəti elmi tədqiqatlar aparılan zaman, həmçinin təhsil müəssisələrində sahibkarlıq hüququ ilə əlaqədar fənlər tədris edilən zaman istifadə edilə bilər, o cümlədən sahibkarlıq fəaliyyəti sahəsində aparılan islahatlar zamanı praktiki maraq kəsb edə bilər. Sahibkarlıq fəaliyyəti ilə bağlı irəli sürülmüş təkliflər isə qanunverici orqan tərəfindən nəzərə alına bilər.**



***Açar sözlər: Sahibkarlıq fəaliyyəti, subyekt, qanuni mənafe, hüquqi müdafiə, hüquqi məsuliyyət, müqavilə öhdəlikləri***

## TƏŞƏKKÜRNAMƏ

Magistr dissertasiyasının yazılmasında mənə dəstək olan, məsləhət və istiqamət verən elmi rəhbərim Araz Qədiməliyevə öz minnətdarlığımı bildirirəm. UNEC Biznes Məktəbinin müəllimlərinə və proqram rəhbərimə öz təşəkkürümü bildirirəm.

Sorğuda yardımını əsirgəməyən Azərbaycan Respublikası Milli Məclis Aparatının İqtisadi Qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqova minnətdaram.

## MÜNDƏRİCAT

**QRAFİK, ŞƏKİL VƏ CƏDVƏLLƏR ..............................................................5**

**GİRİŞ .......................................................................................................7**

**I FƏSİL. SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ ONUN SUBYEKTLƏRİNİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI.............................................................11**

1.1. Sahibkarlıq fəaliyyətinin mahiyyəti, müxtəlif meyarlara görə təsnifatı...........11

1.2. Fiziki və hüquqi şəxslər sahibkarlıq fəaliyyətinin subyektləri kimi.................22

**II FƏSİL. SAHİBKARLIQ FƏALİYYƏTİ SUBYEKTLƏRİNİN HÜQUQ VƏ QANUNİ MƏNAFELƏRİNİN MÜDAFİƏ ÜSULLARININ VƏ ONA DÖVLƏT DƏSTƏYİNİN KOMPLEKS TƏHLİLİ..........................................28**

2.1. Sahibkarlıq fəaliyyəti subyektlərinin əmlak və qeyri-əmlak hüquqlarının müdafiə üsulları..........................................................................................28

2.2. Sahibkarlıq fəaliyyətinə və onun subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsinə dövlət dəstəyi.......................................................................45

**III FƏSİL. SAHİBKARLIQ FƏALİYYƏTİ SUBYEKTLƏRİNİN HÜQUQ VƏ QANUNİ MƏNAFELƏRİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏTİN NƏZƏRİ, TƏCRÜBİ PROBLEMLƏRİ VƏ HƏLL İSTİQAMƏTLƏRİ....... 55**

3.1. Sahibkarlıq fəaliyyəti subyektlərinin əmlak və qeyri-əmlak hüquqlarının pozulmasına görə məsuliyyətin nəzəri, təcrübi problemlərinə müvafiq təkliflər.....55

3.2. Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi kontekstində mübahisələrin alternativ həll istiqamətləri........................................ 62

**NƏTİCƏ VƏ TÖVSİYƏLƏR ........................................................................67**

**BİBLİOQRAFİYA ........................................................................................71**

## Qrafik, şəkil və cədvəllər

**Şəkillər:**

Şəkil 1. Sahibkarlığın növləri, s. 16

Şəkil 2. Sahibkarlığın formaları, s. 20

Şəkil 3. Sahibkarlıq fəaliyyəti subyektləri, s. 23

Şəkil 4**.** Mülkiyyət və digər əşya hüquqlarının müdafiəsi, s. 30

Şəkil 5. Zərərin növləri, s. 42

**Cədvəllər:**

Cədvəl 1. Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində işçilərin sayına görə müəssisələrin təsnifləşdirilməsi, s. 15

Cədvəl 2. Sahibkarlığın təşkilati-iqtisadi formaları, s. 21

# İXTİSARLAR

**AR - Azərbaycan Respublikası**

**İEÖ – İnkişaf etmiş ölkələr**

**KİV - Kütləvi informasiya vasitəsi**

**MM - Mülki Məcəllə**

**MMC - Məhdud məsuliyyətli cəmiyyət**

**MPM - Mülki Prosessual Məcəllə**

## Giriş

**Mövzunun aktuallığı:** Dövlət müstəqilliyi bərpa olunduqdan sonra Azərbaycan Respublikası özünün ilk konstitusiyasını qəbul etdi. Belə halda sovet dövründəki təsərrüfat sistemindən bazar iqtisadiyyatı sisteminə keçmək, həmçinin cəmiyyətin bütün sahəsində hərtərəfli islahatlar aparmaq mühüm idi. Elə həmin dövrdə bazar iqtisadiyyatına keçməklə sahibkarlığın inkişafına şəraitin yaradılması dövlətin siyasi müstəqilliyinin əsas göstəricilərindən biri idi. 1995-ci ildən aparılan hüquqi islahatların nəticəsində çoxsaylı mühüm qanunvericilik aktları qəbul olunub, qüvvəyə minmişdir. Bu aktlar dünya ölkələrinin təcrübəsi də nəzərə alınaraq, beynəlxalq hüquq normalarına uyğunlaşdırılmışdır. Eyni zamanda yeni hüquqi normalar da əlavə edilmişdir ki, bunlardan da biri sahibkarlıq fəaliyyəti ilə əlaqədar olmuşdur.

İqtisadi fəaliyyətin bir növü olan sahibkarlıq orta əsrlərdə yaranmış, hal-hazırda isə inkişafının yüksək mərhələsinə çatmışdır. Yeni hüquqi sahə kimi sahibkarlıq hüququ dövrümüzün tələblərini nəzərdə tutmaqla məhz bu səbəbdən aktuallıq kəsb edir.

Qanunlar sahibkarlıq fəaliyyəti zamanı yaranan münasibətlərin tənzimlənməsinə, sahibkarların fəaliyyətinə maneə törədən səbəblərin aradan qaldırılmasına və bu sahə ilə bağlı digər münasibətlərin nizama salınmasına xidmət etməklə barəbər, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərini müdafiə edir, onların fəaliyyət istiqamətlərini tənzimləyir. Bu sahədə mövcud olan bir sıra çatışmazlıqlar qeyd olunan məsələlərin tədqiqatının əsaslarından biridir.

Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi ilə bağlı problemlərin tədqiqatı son illərdə elmi araşdırma mövzusu kontekstində aktualdır. Bunun isə əsas səbəbi ilk növbədə cəmiyyətdə sosial, iqtisadi mühitdə olan dəyişikliklər, xüsusilə də bazar iqtisadiyyatına keçilməsi ilə əlaqədardır. Qanunvericilikdəki dəyişiklik və yeniliklər, iqtisadi mühitdə bazar münasibətlərinin formalaşma prosesinin davam etməsi, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi mexanizmlərinin

yaradılması və inkişaf etdirilməsi baxımından – sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi məsələlərinin kompleks hüquqi təhlili xüsusilə əhəmiyyətli və aktualdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Hüquqi mənbələrə əsasən qeyd edə bilərik ki, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi problemi hazırda yeni iqtisadi münasibətlərin yaranması ilə bağlı olaraq daha qabarıqdır. Belə ki, respublikamızda sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqi vəziyyəti ilə bağlı bəzi məsələlər tədqiq olunsa da, hüquq və qanuni mənafelərinin müdafiəsi ilə bağlı problemlərin kompleks hüquqi təhlili aparılmamışdır və bu problemlərin həllini özündə əks etdirən hüquqi normalar tədqiq edilməmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:**Tədqiqatın ümumi məqsədi, qanunvericilik aktlarına və hüquq nəzəriyyəsinə əsasən sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin mülki-hüquqi müdafiəsinin geniş və kompleks şəkildə hüquqi araşdırılması təşkil edir. Göstərilən məqsədə nail olmaq üçün tədqiqat işində qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- sahibkarlıq fəaliyyətinin anlayışı və müxtəli meyarlara görə təsnifatının təhlili;
- sahibkarlıq fəaliyyətinin subyektləri kimi fiziki və hüquqi şəxslərin hüquqi statusunun tədqiqi;
- sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi baxımından onların əmlak və qeyri-əmlak hüquqlarının müdafiə üsullarının kompleks təhlili;
- sahibkarlıq fəaliyyətinə və onun subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsinə dövlət dəstəyinin əsas istiqamətlərinin tədqiqi;
- sahibkarlıq fəaliyyəti subyektlərinin əmlak və qeyri-əmlak hüquqlarının pozulmasına görə məsuliyyətin nəzəri, təcrübi problemlərinə müvafiq təkliflərin verilməsi;
- sahibkarlıq sferasında mübahisələrə alternativ həll istiqamətlərinin verilməsi.

**Tədqiqatın obyekti və predmeti**: Tədqiqatın obyekti kimi sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsini tənzimləyən hüquqi normaların tətbiqi zamanı yaranan kompleks hüquqi münasibətlər çıxış edir.

Tədqiqatın predmetini isə sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi üsulları məsələsinə Azərbaycan Respublikasının mülki və sahibkarlıq, konstitusiya hüquqlarının normaları, qanunvericilik aktları, məhkəmə praktikası, elmi və nəzəri baxışların məcmusu təşkil edir.

**Tədqiqatın metodları:** Dissertasiya işində həm ümumelmi metodlardan (sistemli-funksional yanaşma, formal-məntiqi (analitik), tarixi yanaşma metodu), həm də hüquq elmləri metodlarından (müqayisəli hüquqşünaslıq, sistemli təhlil, nəzəri, normativ və praktiki materialların ümumiləşdirilməsi, induksiya və deduksiya) istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Dissertasiyanın informasiya bazasını mövzu ilə bağlı elmi əsərlər, həm əvvəllər qəbul edilmiş, həm də hazırda qüvvədə olan mülki və sahibkarlıq fəaliyyəti ilə əlaqədar münasibətləri tənzim edən qanunvericilik aktları, o cümlədən məhkəmə təcrübəsinin nəticələri, Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi, digər normativ-hüquqi aktlar, habelə Azərbaycan Respublikasının Konstitusiya və Ali Məhkəmələrinin qərarları olmaqla internet resursları təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri:** Milli hüquq elmimizdə sahibkarlıq fəaliyyəti və onun subyektlərinin istehsal fəaliyyəti, həmçinin hüquqi statusu ilə bağlı müxtəlif nəzəri və praktiki məsələləri özündə əks etdirən elmi əsərlər olsa da, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsinə aid elmi əsərlər və tədqiqatlar məhdudiyyət təşkil edir.

**Tədqiqat işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi probleminin xarakterik xüsusiyyətləri müəyyən edilmişdir;
- Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin nəzəri, təcrübi problemlərinə həll yolları təklif edilmişdir;

- Sahibkarlıq fəaliyyəti sahəsində mübahisələrə alternativ həll istiqamətləri verilmişdir.

**Nəticələrin istifadə oluna biləcəyi sahələr:** Əldə olunan nəticələr növbəti elmi tədqiqatlar aparılan zaman, həmçinin təhsil müəssisələrində sahibkarlıq hüququ ilə əlaqədar fənlər tədris edilən zaman istifadə edilə bilər, o cümlədən sahibkarlıq fəaliyyəti sahəsində aparılan islahatlar zamanı praktiki maraq kəsb edə bilər. Sahibkarlıq fəaliyyəti ilə bağlı irəli sürülmüş təkliflər isə qanunverici orqan tərəfindən nəzərə alına bilər.

# FƏSİL 1. SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ ONUN SUBYEKTLƏRİNİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

## 1.1.Sahibkarlıq fəaliyyətinin mahiyyəti, müxtəlif meyarlara görə təsnifatı

Hüquqi baxımdan azad insanların əməyinə əsaslanan sahibkarlıq fəaliyyəti müasir dövrdə özünün ən yüksək inkişaf səviyyəsinə çataraq, cəmiyyətin, iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilmişdir.

Sahibkarlıq fəaliyyəti haqqında qanunda bu fəaliyyətin mahiyyəti fiziki, habelə hüquqi şəxslərin müstəqil şəkildə həyata keçirdiyi, əsas məqsədi qanunla qadağan olunmayan bütün növ təsərrüfat fəaliyyətlərindən, eləcə də məhsulun istehsalından, satışından, xidmətlər göstərilməsindən mənfəət götürülməsi yaxud şəxsi gəlir əldə etmək olan fəaliyyət kimi səciyyələndirilmişdir.

Mülki Məcəllənin (bundan sonra MM) 13-cü maddəsində sahibkarlıq fəaliyyəti demək olar ki, məzmunca eyni, lakin bir az fərqli şəkildə izah edilmişdir. Burada sahibkarlıq fəaliyyətinin sahibkarın müstəqil olaraq, öz istək və riskinə uyğun başladığı və həyata keçirdiyi, həmçinin əsas məqsədinin əmlakdan istifadə, əmtəənin satışı, bu sahədə məqsədyönlü işlər görülməsi və ya xidmətlər göstərilməsi ilə bağlı olaraq gəlirin əldə olunması fəaliyyəti kimi xarakterizə olunur. (Aslanov S.X, 2019: s. 7)

Sahibkarlıq fəaliyyətinin əsas xüsusiyyətləri və hüquqi səciyyəsi Azərbaycan Respublikasının (bundan sonra AR) Konstitusiya və qanunlarında müfəssəl şəkildə xarakterizə olunur.  Ancaq buna baxmayaraq öz tədqiqat işim olduğundan və buna görə də xüsusi yanaşma tələb etdiyindən öncə bu anlayışı daha geniş şəkildə araşdırıb təhlil etmək, ona xas olan cəhətləri və xüsusiyyətləri ön plana çəkmək daha doğru olardı. Bunun üçün də bir çox mənbələrə müraciət edərək məcmu şəkildə fərqli mənbələrdən toplanılan məlumatlar bu fəaliyyət növünü daha geniş anlamda xarakterizə edir.

Sahibkarlıq fəaliyyətinin aşağıdakı xüsusiyyətlərini qeyd edə bilərik:

- sahibkar həmişə sərbəst, müstəqil idarə edən subyekt kimi çıxış edir;

- sahibkar öz biznesinə görə maddi məsuliyyət daşıyır;
- sahibkarlıq fəaliyyəti riskə xasdır;
- məqsədi gəlir əldə etməkdir.

Sahibkarlıq fəaliyyətini iqtisadi fəaliyyət sahəsinin bir növü kimi qeyd etmək olar. Ancaq qeyd edilməsi vacib olan bu əsas xarakteristika istər MM-də, istərsə də Sahibkarlıq fəaliyyəti haqqında qanunun normalarında o qədər də diqqət mərkəzinə yönəldilməmişdir. Baxmayaraq ki, bu nüanslar konstitusiyada qeyd edilib.

AR Konstitusiyasında azad sahibkarlıq hüququ insanın əsas sosial iqtisadi hüquqlarından biri kimi səciyyələndirilir: "Hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər." (AR Konstitusiyası, maddə 59) Bu maddə ilə hər kəsin sahibkarlıqla əlaqədar iqtisadi fəaliyyəti onun azadlığının əks olunması kimi xarakterizə olunur və azad iqtisadi fəaliyyət prinsipi inkişaf etdirilir. Əlbəttə, hər iki normativ akt konstitusiyaya uyğunlaşdırılmalıdır. Bununla yanaşı sahibkarlıq fəaliyyətinin səciyyəvi xüsusiyyətlərində qeyd edilən növlərin siyahısında əmtəə məhsullarının satışı daxil edilmişdirsə, ancaq ən mühüm məsələ olaraq həmin əmtəə məhsullarının istehsalı əlavə edilməmişdir.

Məlumdur ki, sahibkarlıq fəaliyyətinin əsas cəhətlərindən biri mənfəətin (gəlir) sistemli, mütəmadi şəkildə götürülməsidir. Lakin qanunvericilikdə bu, öz əksini tapmamışdır. Əks halda daimi olmayan işlərin görülməsi və yaxud xidmətlərin göstərilməsi ilə əldə edilən mənfəət sahibkarlıq fəaliyyəti ilə əlaqələndirilə bilməz. Bütün bu nüansları nəzərə alsaq "Sahibkarlıq fəaliyyəti haqqında qanun"un 1-ci maddəsinin aşağıdakı redaktədə təsbit edilməsi daha məqsədəuyğun olar:

"Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə istehsalından və satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən sistemli şəkildə mənfəət götürülməsindən ibarət olan fəaliyyətdir."

Bilirik ki, istehlakçıların tələbatları daim artmaqdadır. Sahibkarlıq fəaliyyətinin əsas və mühüm cəhəti mənfəət əldə etmək olsa da, dayanmadan hərəkət edən iqtisadi çarxda sahibkarlıq fəaliyyətilə məşğul olmaq istehlakçıları həmin tələbatlarla təmin etməyə əsaslanır. Lakin bu tələbatlarla təminatı reallaşdırarkən istehsal ehtiyatlarından səmərəli şəkildə istifadə etmək, texniki və texnoloji bazanı mütəmadi olaraq yenisi ilə əvəz etmək, əmtəələrin və xidmətlərin müxtəlif növlərini təklif etmək əsas tələblərdəndir. Bu da öz növbəsində iqtisadi tərəqqini formalaşdırmağa imkan yaradır. İEÖ-in bugünkü bazar iqtisadiyyatı təcrübəsinə nəzər salsaq görərik ki,sahibkarın təşəbbüskarlıq, təşkilatçılıq, rəqabətqabiliyyətlilik və yenilikçilik ideyaları əsasında sahibkarlıq fəaliyyəti ilə məşğulluğu ictimai və iqtisadi sferanın innovasiya və təkmilləşdirmə nöqteyi nəzərindən əsas hərəkətverici qüvvəsidir.

Tarixi inkişaf baxımından sahibkarlıq fəaliyyətini iki hissəyə bölə bilərik:

1) ənənəvi;

2) innovasiya.

Belə ki, ənənəvi sahibkarlıq dövründə sahibkar istehsal amillərinin birləşdirilməsi, fəaliyyəti ilə bağlı əsas qərarların qəbul olunması kimi funksiyaları gerçəkləşdirərkən daha çox öz sərəncamında olan resurslardan səmərəli istifadə etməklə qarşıya qoyduğu məqsədə çatmağa çalışırdı. Lakin bundan fərqli olaraq innovasiya dövründə kəskin rəqabət mühitinin olması ilə əlaqədar sahibkar istəyindən asılı olmayaraq innovasiya fəaliyyəti ilə məşğul olmağa məcburdur ki, bu da özünü istehsal sahəsində daha çox əks etdirir.

Sahibkarlıq fəaliyyəti üçün maliyyə təminatını yaradan və onun nəticələrinə görə məsuliyyət daşıyan şəxs kimi sahibkar, ilk növbədə, öz təşəbbüsü ilə təşkil etdiyi iqtisadi fəaliyyətin fasiləsizliyinin və mənfəətliliyinin təmin olunmasında maraqlıdır. Yuxarıda da sahibkarlıq fəaliyyətini xarakterizə edən xüsusiyyətləri sadalayərkən qeyd etmişdik ki, sahibkarın fəaliyyətinin əsas məqsədi gəlirin əldə olunmasıdır. Demək, göstərilən nəticənin əldə olunub-olunmaması sahibkarlıq fəaliyyətinin davamı və ya dayandırılması üçün əsas rol oynayır.

İqtisad elmində sahibkarlıq fəaliyyəti bir sıra meyarlara görə təsnifləşdirilir. Belə ki, sahibkarlıq mülkiyyət mənsubiyyətinə görə fərdi (xüsusi), kollektiv, dövlət sahibkarlığına və birgə sahibkarlığa; fəaliyyət həcminə görə-kiçik, orta və iri sahibkarlığa, fəaliyyət sahəsinə görə - sənayedə, kənd təsərrüfatında, ticarətdə və s. həyata keçirilən sahibkarlığa; fəaliyyətin xarakterinə görə istehsalla, kommersiya ilə, xidmətlər göstərməklə bağlı olan sahibkarlığa, əhatə etdiyi ərazi meyarına görə-yerli, region, ümumölkə və beynəlxalq səviyyədə həyata keçirilən sahibkarlığa ayrılır. (Manafov Q.N, 2011: s. 66)

Sahibkarlığın müxtəlif meyarlara görə təsnifatının aparılması bizə imkan verir ki, onun hər bir formasının iqtisadiyyatın inkişafında əhəmiyyətini dərk edək, müsbət və mənfi əlamətlərini, fəaliyyətinin müxtəlif səciyyəvi cəhətlərini, fəaliyyət həcminə görə ən əlverişli üsullarını müəyyənləşdirək.

Bazar iqtisadiyyatının formalaşdığı ölkələrin təcrübəsinə baxsaq görərik ki, hal hazırda xüsusi mülkiyyət ancaq fərdi mülkiyyət şəklində deyil, kooperativ, korporativ, həmçinin qrup şəklində də çıxış edə bilir. Burada həmçinin iqtisadi fəaliyyətin bir çox sahələrini özündə birləşdirən dövlət mülkiyyəti də xüsusi qeyd edilməlidir. Belə ki, sahibkarlıq fəaliyyətinin müxtəlifformalı olmasını şərtləndirən əsas əlamət elə iqtisadi şəraitdə mülkiyyətin formalarının müxtəlifliyi ilə əlaqədardır. Birgə sahibkarlığın əsas mahiyyəti bundan ibarətdir ki, ölkə daxilində bu fəaliyyətin yerinə yetirilməsi istər həmin ölkənin, istər xarici ölkələrin sahibkarlıq fəaliyyəti subyektlərinin birgə, şərikli fəaliyyətinə əsaslanır. Bunun da təşkilati, hüquqi formasını birgə müəssisələr təşkil edir. Ölkəyə xarici kapitalın gəlməsi, xarici investisiyaların qoyulması bu sahibkarlığı fərqləndirən əsas cəhətdir.

Fəaliyyət həcminə görə ayırdığımız kiçik, orta, iri sahibkarlığın təşkilati, hüquqi formaları müvafiqhəcmli müəssisələrdir. Onların fəaliyyət həcminə görə təsnifləşdirilməsinin də bir neçə məqsədi vardır. Məsələn kiçik sahibkarlıq, bazar iqtisadiyyatlı ölkələrdə rəqabət mühitinin mövcud olması ilə bağlı olaraq fəaliyyətlərinin ilk mərhələsində dövlət dəstəyinə ehtiyac duyur. Bu səbəbdən, dövlət dəstəyinin konkret istiqamətinin düzgün təyin edilməsi baxımından sahibkarlıq formalarının fərqləndirilməsi lazımdır. Həmçinin bu təsnifləşdirilmənin

aparılması bazar iqtisadiyyatına keçid dövrünü yaşayan ölkələrdə özəlləşdirmə prosesində xüsusi rol oynayır.

Demək olar ki, bütün bazar sistemli ölkələrdə müəssisələr kiçik, orta, iri sahibkarlığa aid edilir. Bu halda əsas göstərici kimi işçilərin sayı, ölkənin iqtisadi, siyasi, sosial durumu və ərazisinin miqyası əsas götürülür. Respublikamızda həyata keçirilən dövlət mülkiyyətinin özəlləşdirilməsinin II Dövlət Proqramı ilə əlaqədar olaraq fəaliyyətin həcminə görə sahibkarlıq formalarının subyektləri-müəssisələr aşağıdakı kimi müəyyən edilmişdir.

**Cədvəl 1. "Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində işçilərin sayına görə müəssisələrin təsnifləşdirilməsi"**

| Sıra № | Sahə mənsubiyyəti | İşçilərin sayına görə qruplaşdırma (nəfərlə) | | |
|---|---|---|---|---|
| | | kiçik | orta | iri |
| 1 | Sənaye | 50-dək | 50-150 | 150-dən çox |
| 2 | Tikinti | 50-dək | 50-100 | 100-dən çox |
| 3 | Nəqliyyat və rabitə | 50-dək | 50-100 | 100-dən çox |
| 4 | Elmi-texniki | 30-dək | 30-75 | 75-dən çox |
| 5 | Ticarət, xidmət və s. | 25-dək | 25-50 | 50-dən çox |

**Mənbə:** Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı, Bakı 2000, № 383

Kiçik müəssisələr daha geniş əhatəli olub, həm istehsal, həm də istehlak xarakterli tələbatları qarşılayır. Yüksək riskli olması, rəqabət mühitində fəaliyyət göstərməsi kiçik sahibkarlığın əsas problemlərindəndir. Kiçik müəssisələrlə müqayisədə orta həcmli müəssisələrin profili məhduddur, lakin daha geniş imkanlara malikdir ( maddi, texnoloji, kadr). Bu da onu iri müəssisələrə yaxın edən əlamətlərdəndir. Kiçik sahibkarlığa fərdi müəssisələr aiddir, orta sahibkarlığa isə səhmdar cəmiyyətlər, yəni korporasiyalar aiddir. İri sahibkarlıq yüksək kapitala, geniş istehsal bazasına, yeni texnika və texnologiyaya malikdir. Lakin texniki-

texnoloji dəyişikliklərin qısa zamanda istehsala tətbiqi baxımından imkanları məhduddur.

Sahibkarlıq fəaliyyəti bir-biri ilə qarşılıqlı əlaqədə olan və bir-birini tamamlayan istehsal, kommersiya, maliyyə, konsultativ (konsaltinq) və s. kimi növləri vardır. Sahibkarlığın qeyd edilən növləri də yarımnövlərə bölünür. Bu bölgünü aşağıdakı şəkildə görmək olar.

**Şəkil 1.** Sahibkarlığın növləri



**Mənbə:** Niftullayev V.M, 2002.

İstehsal sahibkarlığı biznes fəaliyyətinin hərəkətverici, ölkənin davamlı və dayanıqlı sosial-iqtisadi tərəqqisinə təsir edir. Fəaliyyət göstərdiyi uyğun sahədən, istehsal etdiyi məhsulun növündən və təyinatından asılı olmayaraq istehsal sahibkarlığı formasının qarşısında aşağıdakı tələblər vardır:

- iqtisadi fəaliyyətə başlamazdan əvvəl istehsal amillərinin əldə olunması;
- istehsal olunan məhsulun istehlakçının istəyinə uyğun gəlməsi üçün bazar marketinqinin aparılması;
- biznes tərəfdaşları ilə müsbət iqtisadi əlaqələrin qurulması;
- informasiya mənbələrinə girişin olması;
- hazır məhsulun bilavasitə istehlakçıları ilə danışıqlar aparıb əlaqələrin qurulması;
- vasitəçi ticarət və nəqliyyat təşkilatları və s. ilə gəlirli əlaqələrin qurulması;
- istehsal prosesinin mütəmadi olaraq innovasiya ilə təchiz olunması və s.

Sahibkarlıq fəaliyyətinin reallaşdırıldığı iri sahələrdən biridir xidmət. Xidmət sferasında fəaliyyət göstərən sahibkarlıq növlərinin çoxluğu, göstərdikləri xidmətin səviyyə və keyfiyyəti ölkədə iqtisadiyyatın inkişafı, bazar iqtisadi əlaqələrinin genişliyi ilə bilavasitə bağlıdır. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər saldıqda görürük ki, əvvəlki dövrlərə nisbətən xidmət sferasında sahibkarlığın rolu xeyli artmışdır. Bu da özünü xidmət sahələrində çalışanların sayında xeyli artım olmasında, istehsalyönümlü və qeyri-istehsal yönümlü xidmətlərin innovativ formalarının yaranmasında, mütəmadi göstərilən xidmət növlərinin keyfiyyətinin nəzərəçarpacaq dərəcədə yüksəlməsində detallı şəkildə göstərir. (Manafov.Q.N, 2011: s. 92,93)

Bazar iqtisadiyyatı ölkələrində sahibkarlığın xidmət sahəsinin əsas və önəmli hüquqi formalarından biri kimi informasiya xidmətini həyata keçirən şirkət və agentliklər mühüm rol oynayır. Burada informasiya əmtəə xarakteri daşıyır, daha doğrusu bir bazar obyekti fonunda çıxış edir. Məlum məsələdir ki, müasir dövrdə bazar iqtisadiyyatı inkişaf etmiş dünya ölkələrində rəqabətlilik və qeyri-müəyyənlik

şəraitində, işgüzar fəaliyyətdə atılan hər bir addım, verilən hər bir qərar iqtisadi informasiyaya əsaslanır ki, bu kimi informasiyalara da istehsalçı və istehlakçılar, həmçinin bazar subyektləri haqqında informasiyalar, resursların hansı xarakterli olması və qiyməti, əmtəə bazarının vəziyyəti, rəqabətliliyi haqqında və s. informasiyalar daxildir.

Beynəlxalq təcrübə göstərir ki, kommersiya sahibkarlığı (kommersiya, ticarət xidmətləri), maliyyə sahibkarlığı (maliyyə-bank xidmətləri) və konsultativ sahibkarlıq daha geniş yayılmış digər sahibkarlıq növlərindəndir. Kommersiya sahibkarlığının iqtisadi məzmunu alqı-satqı əməliyyatları, fəaliyyət dairəsi əsasən ticarət sahəsi, təşkilati hüquqi forması isə başlıca olaraq ticarət firmaları (müəssisələri) və əmtəə birjaları ilə əlaqəlidir.

Kommersiya sahibkarlığının aşağıdakı cəhətləri vardır:

- istehsal sahibkarlığı ilə əlaqədar olub, ona nisbətən daha aşağı risklidir;
- istehlakçıların tələbinə tez uyğunlaşa bilir;
- istehsal sahibkarlığı ilə müqayisədə az ilkin kapital tələb olunur;
- risklərin idarəsi, bazardakı dəyişikliklərin vaxtında qiymətləndirilməsi mühümdür.

Əmtəə birjaları və ticarət təşkilatları kommersiya sahibkarlığının ən geniş yayılmış formalarındandır. Əmtəə birjasından danışarkən qeyd etmək lazımdır ki, burada əsas proses əmtəələrin alqı-satqısı ilə bağlı olsa da bu alqı-satqı əməliyyatları, yəni mübadilə istehlakçı ilə istehsalçı arasında həyata keçirilmir. Ticarət agentlikləri, dəllalar vasitəsilə həyata keçirilir.

Bazar münasibətlərinin əsas göstəriciləri olan kommersiya bankları və fond birjaları kimi iqtisadi strukturlar maliyyə sahibkarlığı fəaliyyətinin əsas sahələrini təşkil edir. Kommersiya banklarının xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

- maliyyə-kredit idarəsidir;
- kommersiya təşkilatlarını haqqı ödənilməklə kreditləşdirir;
- pul əmanətlərini (depozit) qəbul edir;
- müştərilərin istəyi ilə müxtəlif əməliyyatlar yerinə yetirir

Fond birjası isə qiymətli kağızlar bazarı kimi xarakterizə olunur.

Müasir dövrdə sahibkarlığın əsas növlərindən biri də konsultativ sahibkarlıqdır. Sahibkarlığın bu forması ümumi idarəetmə prinsipləri və malların satışının təşkilində məsləhət verməklə (haqqı ödənməklə) əlaqədardır ki, bu məsləhətlər də şifahi formada həyata keçirilir. Amma qeyd etmək lazımdır ki, bu məsləhətlər problemlərin üzə çıxarılması, layihənin (problemlərin) işlənib hazırlanması və layihənin reallaşdırılması mərhələləri ilə layihə şəklində də verilə bilir. Sahibkarlıq sferasındakı qeyri-müəyyənliklər, çətinlik və risk səviyyəsinin yüksəkliyi, həmçinin subyektləri arasındakı rəqabətin artması son dövrlərdə konsaltinq xidmətlərinə tələbatın artması ilə müşahidə olunur. Konsultativ sahibkarlığın dünyada ən səmərəli və inkişaf edən sahibkarlıq fəaliyyəti növü kimi xüsusi rol oynaması da bu səbəbdəndir.

İnnovasiya sahibkarlığı ideya və texnologiyaların təcrübədə istifadə olunması ilə bazara müxtəlif yeni, keyfiyyətli məhsulların çıxarılmasına və texnologiyaların inkişafına şərait yaradır. İnnovasiya sahibkarlığı ancaq sahibkarın sərəcamında olan resurslara əsaslanmır. İstehsal, istehlak və mübadilə ilə bağlı münasibətləri hərtərəfli əhatə edərək, iqtisadi, texniki, həm də idareətmə kimi potensial imkanlardan yeni üsul və qaydada istifadə və idarəetməyə əsaslanır. Müasir dövrdə yeni texnologiya və yaradıcı fikirlərin tətbiqi iqtisadi mühitin sürətlə formalaşması və inkişafına öz töhfəsini verdiyindən, sahibkarlığın bu formasına tələbat artır. Buna görə də daha çox maliyyələşdirilir. Hesab edirəm ki, bazar iqtisadiyyatına keçid edən ölkələrdə də innovasiya sahibkarlığına kapital qoyulmalı, dövlət tərəfindən inkişafına dəstək verilməlidir. Çünki yalnız bu halda dünya bazarına rəqabətədözümlü məhsullar çıxarmaq olar. İqtisadi fəaliyyəti innovasiya təməli üzərində qurulmayan istənilən təsərrüfat forması iqtisadi artıma nail ola bilməməklə yanaşı, rəqabət mühitində qısa zamanda rəqibləri tərəfindən sıxışdırılıb bazardan çıxmağa məhkumdur.

Bazar iqtisadiyyatı formalaşıb, inkişaf etdikcə və yeni iqtisadi münasibətlərin yaranması ilə sahibkarlıq fəaliyyətinin də müxtəlif formaları yaranır. Bu nöqteyi nəzərdən də onları bir-birindən fərqləndirmək zərurəti yaranır. Sahibkarlığın bu formaları aşağıdakı şəkildə göstərilmişdir.

**Şəkil 2.** Sahibkarlığın formaları




**Mənbə:** F.H.Qasımov, İ.H.İsmayılov, L.F.Qasımova, 2008.

Təşkilati-hüquqi formalara aşağıdakılar aiddir:

- şirkət
- cəmiyyət
- kooperativlər

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün yaradılan şəxslər birliyi şirkət adlanır. Əgər müəssisə təşkil edilərkən iki və ya daha artıq partnyorun iştirak etməsinə qərar verilirsə bu halda şirkət yaradılır. Əsas üstünlükləri - əlavə kapitalın cəlb oluna bilməsi imkanları, hər bir partnyorun bilik və bacarığı sayəsində müəssisədaxili ixtisaslaşmanın yaranması imkanlarıdır. Lakin şirkətin mənfi cəhətlərindən biri odur ki, hər partnyor qoyulan əmanətin həcmindən asılı olmayaraq bərabər maddi məsuliyyət daşıyırlar. Onlardan birinin işi digərlərinin razılaşıb razılaşmamasından asılı olmayaraq hər birini məcburiyyət qarşısında qoyur.

Partnyorluq (yoldaşlıq) iki qrupa bölünür:

- tam (yoldaşlıq məhdudiyyətsiz məsuliyyətlə);
- kommandit (yoldaşlıq məhdud məsuliyyətlə).

Kommandit yoldaşlıqda partnyorların bir hissəsi məhdudiyyyətsiz, bir hissəsi isə məhdudiyyətli məsuliyyətə malik ola bilir.

Cəmiyyət, ikidən az olmayaraq vətəndaşların və ya hüquqi şəxslərin təsərrüfat fəaliyyətinin həyata keçirilməsi məqsədilə onların əmanətlərinin istər pul, istər natura şəklində birləşdirilməsi yolu ilə yaradılır. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları cavabdeh deyillər. Onlar yalnız qoyduqları əmanətin dəyəri həddində məsuliyyət daşıdıqları halda, əlavə məsuliyyətli cəmiyyətin iştirakçıları özlərinin bütün əmlakları ilə məsuliyyət daşıyırlar. Ən çox yayılan səhmdarlıq cəmiyyətləridir. Səhmləri ancaq səhmdar cəmiyyətlərinin buraxmaq hüququ var.

Əmlak pay haqlarının birləşdirilməsi yolu ilə qrup şəxslər tərəfindən yaradılan müəssisə isə kooperativ adlanır.

Sahibkarlığın təşkilati-iqtisadi formalarına başlıca olaraq aşağıdakılar aiddir:

**Cədvəl 2**. Sahibkarlığın təşkilati-iqtisadi formaları

| | |
|---|---|
| Konsernlər | Ümumi maraqlarla, müqavilələrlə, kapital ilə birgə fəaliyyətdəki iştirakla bir-birilə bağlı olan müəssisələrin böyük birləşməsidir. |
| Assosiasiyalar | Fiziki və (və ya) hüquqi şəxslərin qarşılıqlı əməkdaşlıq məqsədilə könüllü birləşməsidir. |
| Konsorsiumlar | İri maliyyə əməliyyatlarını aparmaq məqsədilə sahibkarların birliyindən ibarətdir. |
| Sindikatlar | Eyni məhsul buraxan müəssisələrin məhsulun vahid satış şəbəkəsi vasitəsilə satışının təşkil edilməsi məqsədilə birləşməsidir. |
| Kartellər | İstehsalçıların, yaxud istehlakçıların birləşməsi forması, istehsal və satış həcmləri, qiymətləri, satış bazarları haqqında profilinə görə yaxın olan müəssisə, firma və şirkətlər arasındakı açıq və gizli razılaşma. |
| Maliyyə-sənaye qrupları | Sənaye, bank, sığorta və ticarət kapitallarının, həmçinin müəssisə və təşkilatların intellektual potensiallarının birləşməsini ehtiva edir. |

**Mənbə:** F.H.Qasımov, İ.H.İsmayılov, L.F.Qasımova, 2008.

Konsern. Çox zaman bu tipli təşkilatlar qrupu onların səhmlərinə malik olan holdinq şirkətində birləşir.

Assosiasiya fiziki və hüquqi şəxslərin öz istəkləri ilə birləşməsidir ki, burada da əsas məqsəd əməkdaşlıq etməkdir. Lakin birləşsələr də biri digərindən asılı olmur

və ya müstəqilliyi qısıtlanmır. Assosiasiya, sahibkarlıq fəaliyyəti subyektlərinin birləşərək qarşılıqlı fəaliyyətinin ən mükəmməl formasıdır.

Konsorsiumda da sahibkarlar birləşir, böyük həcmli maliyyə əməliyyatları aparılır. Belə halda böyük sanaye layihələrinə investisiya qoyuluşu hər bir sahibkar üçün riski xeyli aşağı salır. Çünki bərabər maddi məsuliyyət daşıyırlar.

Sindikat eynitipli məhsulun istehsalı ilə məşğul olan müəssisələrin birləşməsidir. Burada məqsəd həmin məhsulların vahid satış şəklində satışının yerinə yetirilməsidir.

Kartel ticari məlumatlarına əsasən bir-birinə yaxın olan müəssisələrin aralarındakı açıq və gizli razılaşmadır. Sahibkarlığın elə bir təşkilati-iqtisadi formasıdır ki, burada istehsalçılar və ya istehlakçılar birləşirlər. Bunun məqsədi, birləşmədaxili rəqabətin ləğvi və yaxud məhdudlaşdırılaraq nizamlanmasıdır.

Maliyyə sənaye qrupları isə sahibkarlığın yeni təşkilati-iqtisadi forması olub, müəssisə və təşkilatların intellektual potensiallarının birləşməsindən ibarətdir.

Beləliklə, birinci fəslin birinci yarımfəslində sahibkarlıq fəaliyyəti anlayışı qanunvericilik fonunda araşdırılmış, müxtəlif meyarlara görə təsnifatının əsas xüsusiyyətləri müfəssəl şəkildə göstərilmişdir.

## 1.2. Fiziki və hüquqi şəxslər sahibkarlıq fəaliyyətinin subyektləri kimi

Sahibkarlıq fəaliyyətinin əsaslarından danışarkən, onun subyektlərini də müəyyənləşdirmək lazımdır. Subyekt dedikdə sahibkarlıq obyektlərinin istehsalını, satışını, idarə edilməsini və digər funksiyalarını yerinə yetirən fiziki və hüquqi şəxslər nəzərdə tutulur. Sahibkarlıqla məşğul olan fiziki və hüquqi şəxslər üçün başlıca tələb onların hüquq qabiliyyətli olması olub, öz hərəkətləri ilə mülki hüquqlar əldə edərək həyata keçirməi, özü üçün mülki vəzifələr yaratması və icra etməsi qabiliyyətinə malik olmasıdır.

Azərbaycanda sahibkarlıq fəaliyyəti subyektlərinin strukturu və tərkib hissələri aşağıdakı şəkildə göstərilmişdir.

**Şəkil 3.** Sahibkarlıq fəaliyyəti subyektləri




**Mənbə:** https://e-qanun.az/framework/7920

Məlumdur ki, sahibkarlıq fəaliyyətinin legitimi onun dövlət qeydiyyatından keçməsi ilə başlanır. Fərdi sahibkar fəaliyyət qabiliyyətli elə fiziki şəxsdir ki, o, öz riski, öz əmlak məsuliyyəti ilə müstəqil şəkildə sahibkarlıqla məşğul olur və qanunla nəzərdə tutulmuş qaydada vergi orqanlarında dövlət qeydiyyatından keçir. Hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan kiçik sahibkarlardır fiziki şəxslər. Amma vurğulamaq yerinə düşər ki, kiçik sahibkarlar ancaq fiziki şəxslərdən ibarət olmur. Əgər fiziki şəxsin istər sahibkarlıq fəaliyyəti, istərsə də hər hansı digər fəaliyyətlə məşğul olmaq hüququ əsassız (qanunsuz) məhdudlaşdırılırsa, bu zaman həmin məhdudiyyəti qoyan dövlət orqanının və ya digər orqanın aktı etibarsız hesab olunur.

Sahibkarlıq fəaliyyəti sferasında önəmli mövqedə hüquqi şəxslər durur ki, bu anlayışın da əsas cəhətləri, hüquqi statusu MM ilə xarakterizə olunur. Onlar müstəqil balanslı olub, xüsusi təsis edilmiş qurum kimi, mülkiyyətindəki xüsusi əmlakla öz öhdəliklərinə cavabdeh olaraq, qanun çərçivəsində dövlət qeydiyyatından keçirlər. Öz adlarından müəyyən hüquqlar (əmlak, qeyri-əmlak) əldə edərək həyata keçirə, mübahisə halında məhkəmədə həm iddiaçı kimi, həm də cavabdeh kimi çıxış edə

bilirlər. Hər hansı bir fiziki yaxud hüquqi şəxs, ya da onların toplusu hüquqi şəxsi təsis edə bilər. Hüquqi şəxslər qanunvericilik, həmçinin nizamnamə əsasında fəaliyyətlərini həyata keçirən öz orqanları ilə mülki hüquqlara sahib olur və öhdələrində mülki vəzifələri olur. Sahibkarlıq fəaliyyətinin subyekti kimi hüquqi şəxsləri digər subyektlərdən fərqləndirən əsas cəhət odur ki, bu subyektlərlə bağlı münasibətlər kollektiv məzmun daşıyır. Bu məsələdə hüquqi şəxs qismində müəssisələrin çıxış edə bilməsi əsas nüansdır.

Hüquqi şəxsin də mülki hüquqlara sahib olması və hüquqi vəzifələr daşıması üçün ilk növbədə dövlət qeydiyyatına alınması lazımdır. Hüquqi ədəbiyyatda belə fikir var ki, sahibkarlıqla məşğul olan şəxslərin dövlət qeydiyyatına alınması, heç də bu fəaliyyət növünü xarakterizə edən əsas cəhət sayılmır. (Алексеев С.В, 2004, s. 21-24)Hesab edirəm ki, bu yanaşma düzgün deyil. Çünki dövlət və yerli özünüidarəetmə orqanları da qanunla yol verilən hallarda sahibkarlıq fəaliyyətinin subyektləri fonunda çıxış edə bilirlər. Sırf bu cəhətə görə də xüsusi səlahiyyətli bu subyektlərlə əsas məqsədi mənfəət əldə etmək olan kommersiya təşkilatları və fərdi sahibkarlar fərqləndirilir.

Bəzi müəlliflər ayrı-ayrı hüquqi şəxslərin hüquqi statuslarını tənzimləyən normaların məzmunca geniş olmasını nəzərə alaraq xüsusi bir qanunun olmasını təklif edirlər. (Толстой Ю.К, 2001, s.46; Хохлов В.В, 2003, s.154) Lakin hesab edirəm ki, hüquqi şəxs kimi kommersiya təşkilatları, müəssisə və idarələrlə bütün münasibətlər MM ilə tam şəkildə əhatə olunub, tənzimləndiyi üçün başqa bir qanunun qəbul edilməsinə zərurət yoxdur.

Hüquqi şəxslər sahibkarlıq fəaliyyəti ilə məşğul olub, olmamasından asılı olmayaraq üzvlüyə əsaslanaraq, üzvlərdən asılı olaraq və ya olmayaraq da təsis oluna bilir. Mülki hüquq münasibətləri kontekstində AR və bələdiyələr digər hüquqi şəxslər kimi iştirak edirlər. Belə hallarda onların hüquqi dairəsində olan məsələlər onun hüquqi şəxslər olmayan orqanları tərəfindən yerinə yetirilir.

Kommersiya və ya qeyri-kommersiya qurumları da hüquqi şəxslər ola bilər.

Qeyri-kommersiya qurumu kimi hüquqi şəxslər qanunvericilik əsasında müxtəlif formalarda təsis oluna bilər. Ümumiyyətlə bu təşkilatların adında hüquqi

şəxsin fəaliyyətinin mahiyyəti qeyd olunmalıdır. Bu hüquqi şəxslər yalnız o hallarda sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər ki, fəaliyyəti əsas məqsədlərə xidmət edir və uyğun gəlir. Qeyri-kommersiya hüquqi şəxsləri təsərrüfat cəmiyyətləri təsis etməklə və ya həmin cəmiyyətlərdə iştirakı ilə də sahibkarlıq fəaliyyətlərini yerinə yetirə bilərlər.

Mülki qanunvericiliyə görə hər bir hüquqi şəxsin əmlakının formalaşdırılaraq bu əmlakdan istifadəni və bu fəaliyyətdən irəli gələn hüquqi statusu və mahiyyətini əks etdirən adı, yəni təşkilati hüquqi forması olur. Kommersiya təşkilatı kimi hüquqi şəxslərin firma adları qeyd olunur ki, bu adlardan da istifadə ilə əlaqədar olaraq qanunla qeydə alınan hüquqi şəxslər müstəsna hüquqa malik olurlar. Kommersiya təşkilatlarının başlıca növü kimi təsərrüfat ortaqlıqlarını və cəmiyyətlərini, tam ortaqlığı, kommandit ortaqlığı, məhdud məsuliyyətli cəmiyyəti, əlavə məsuliyyətli cəmiyyəti, səhmdar cəmiyyəti, onun növləri olan açıq tipli səhmdar cəmiyyəti, qapalı tipli səhmdar cəmiyyətini misal göstərə bilərik.

Tam ortaqlıq sahibkarlıq fəaliyyəti üçün yaradılıb, təsərrüfat ortaqlıqlarının elə növüdür ki, iştirakçıları (ən az 2 nəfər) nizamnaməyə uyğun qaydada sahibkarlıq fəaliyyətilə məşğul olurlar və bu ortaqlıqdan yaranan öhdəliklərə əmlakla məsuliyyət daşıyırlar. Burada tam ortaq kimi sahibkarlar çıxış edirlər ki, burada da söhbət fərdi sahibkar və kommersiya təşkilatından gedir. Həm də qeyd etmək yerinə düşər ki, tam ortaqlığı təsis edən iştirakçılardan biri fərdi sahibkar, digəri isə kommersiya təşkilatı ola bilir və iştirakçıların tərkibi müxtəlif səbəblərlə əlaqədar dəyişdirilə bilir.

AR qanunvericiliyi kommandit ortaqlığını təsərrüfat ortaqlıqlarının başqa bir forması kimi nəzərdə tutur və burada bu ortaqlıqla bağlı müəyyən olunan qaydalar Almaniya, Rusiya Federasiyası kimi ölkələrin qanunvericilik ənənələrinə əsaslanır. Kommandit ortaqlığına verilən definisiya bundan ibarətdir ki, bu ortaqlıq tam ortaqlar və maya qoyanlar olmaqla iki kateqoriya (qrup) iştirakçını özündə birləşdirir. Az öncə qeyd etdik ki, tam ortaqlar əmlakla məsuliyyət daşıyırlar. Bundan fərqli olaraq digər qrup şəxslər (maya qoyanlar) qoyulan maya həddində məsuliyyət daşıyıcısı olub, sahibkarlıq fəaliyyətində və ortaqlığın idarəolunmasında

iştirakı olmayan payçılardır. Halı ilə də onlar sahibkar deyil, istənilən fiziki və hüquqi şəxs qismində sadəcə qoyulan kapitaldan mənfəət götürmək məqsədilə rol oynayır ki, bu məqsəd də həmin payçıları ortaqlıq iştirakçısı olmağa vadar edir.

Müasir dövrdə bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə hüquqi şəxsin ən məşhur formasıdır məhdud məsuliyyətli cəmiyyət. Sahibkarlıq sferasında kommersiya dövriyyəsində istifadə üçün ən rahat və münasib formadır və hüquqi şəxslərin əksəriyyəti demək olar ki, bu təşkilati-hüquqi formada təsis edilir. Anoloji olaraq bizim ölkəmizdə də məhdud məsuliyyətli cəmiyyət üçün eyni fikirləri söyləmək olar. Məhdud məsuliyyətli cəmiyyət kommersiya təşkilatıdır və iştirakçıları bu fəaliyyətin öhdəliklərinə görə cavabdeh deyillər, ancaq qoyduqları əmanətin dəyəri həddində məsuliyyət daşıyırlar. Ortaqlıqdan fərqli olaraq burada iştirakçılar fəaliyyətdə iştirak etməyə borclu deyil. MMC-də şəxsi fəaliyyət və əmək əsas rol oynamır. İştirakçılarının qoyduğu kapital, vəsait, qısaca əmlak burada mühüm rolu oynayır.

Əlavə məsuliyyətli cəmiyyətə verilən definisiyaya baxsaq görərik ki, ikili xarakterlidir. Yəni həm tam ortaqlığın, həm də MMC-nin xüsusiyyətlərini daşıyaraq, orta mövqedə dayanır. Ortaqlıqla əsas oxşarlığı odur ki, hər ikisində iştirakçılar birgə subsidiar məsuliyyət daşıyıcısıdır. MMC-dən fərqləndirən əsas əlamət kimi də elə bu nüans çıxış edir. Çünki MMC-də iştirakçılar cavabdehlik daşımırlar. Lakin digər məsələlərdə MMC ilə eyni hüquqi statusu daşıyırlar.

Məhdud Məsuliyyətli Cəmiyyətdən sonra Səhmdar Cəmiyyəti bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə öz əhatə dairəsinə görə ikinci yeri tutur. Onları birləşdirən əsas oxşarlıq odur ki, hər ikisində nizamnamə kapitalı bərabərlik prinsipi əsasında məlum paylara bölünür. Bir yaxud bir neçə şəxs tərəfindən təsis edilən kommersiya təşkilatıdır səhmdar cəmiyyəti. Burada səhmdarlar öhdəliklərə görə cavabdeh deyildirlər,ancaq öz səhmlərinin dəyəri qədərində məsuliyyət daşıyıcısıdırlar. Açıq səhmdar cəmiyyətində səhmdarlar sahib olduqları səhmləri digər iştirakçıların razılığı olmadan müstəqil surətdə özgəninkiləşdirmək hüququna sahibdirsə, bunun əksi olaraq, qapalı səhmdar cəmiyyətində buraxılan səhmlər ancaq

ya onu təsis edənlər arasında, ya da öncədən müəyyənləşdirilmiş digər şəxslər arasında bölüşdürülə bilir.

Sahibkarlıq fəaliyyəti iqtisadiyyatın döngüsünə təkan verən mühüm prosesdir. Qanun çərçivəsində bazar iqtisadiyyatının rəqabət mühitində yeni ideyalarla, innovativ fəaliyyətilə ağıllı qərarlar qəbul edərək, məqsədəuyğun risklər alaraq müntəzəm gəlir əldə etmək məqsədilə sahibkarlıq fəaliyyətilə məşğul olan şəxslər sahibkar statuslu fiziki şəxslərdir.

Qanunvericilikdə sahibkarlıq fəaliyyəti subyektlərinin dairəsi olduqca məhdud müəyyən edilmişdir. Fikrimizcə, sahibkarlıq fəaliyyəti subyektləri müəyyən edilərkən onun mülki dövriyyənin və sahibkarlıq fəaliyyətinin iştirakçıları tərəfindən hayata keçirilməsinin əsas funksiya kimi çıxış etməsindən deyil, həm də qanuna zidd olmayan məqsədlər üçün onun həyata keçirilməsi imkanından çıxış etmək lazımdır.

Beləliklə birinci fəslin ikinci yarımfəslində sahibkarlıq fəaliyyəti subyektləri (hüquqi və fiziki şəxslər), onların hüquqi statusu detallı şəkildə əhatə olunaraq əks olunmuşdur.

# FƏSİL 2. SAHİBKARLIQ FƏALİYYƏTİ SUBYEKTLƏRİNİN HÜQUQ VƏ QANUNİ MƏNAFELƏRİNİN MÜDAFİƏ ÜSULLARININ VƏ ONA DÖVLƏT DƏSTƏYİNİN KOMPLEKS TƏHLİLİ

## 2.1. Sahibkarlıq fəaliyyəti subyektlərinin əmlak və qeyri-əmlak hüquqlarının müdafiə üsulları

Mühüm əhəmiyyət kəsb edən amil kimi əmlak hüququ, mülkiyyət və digər əşya hüquqlarının qorunması və onların yerinə yetirilməsinə şəraitin yaradılması nəticəsində sahibkarlıq fəaliyyətinin inkişafı və normal fəaliyyətinə nail olmaq olar. Qanunla nəzərdə tutulmuş qaydada məcburedici xarakterli tədbirləri özündə əks etdirən əmlak hüquqlarının müdafiəsində bu metodların tətbiqi ilə pozulmuş hüquq və mənafelərin bərpası, tanınması üçün, həmçinin hüquq pozuntusu törətmiş şəxslərə qarşı uyğun tədbirlər görülür.

Mülki hüquqların məhkəmə müdafiəsi ümumi yurisdiksiya məhkəmələri və iqtisad məhkəmələrində həyata keçirilir. Bu, mülki-hüquq və qanuni mənafelərin ümumi qaydada müdafiəsidir. Hüquqi ədəbiyyatda mülki-hüquqi mübahisələrə münsiflər məhkəməsi tərəfindən baxıla bilməsi məsələsi də vurğulanır. Ümumi qayda ilə yanaşı, mülki hüquqların xüsusi qaydada müdafiəsi də fərqləndirilir. Xüsusi qaydada mülki hüquqların müdafiəsi dedikdə bu məsələlərlə bağlı olan inzibati formada müdafiə başa düşülür. Belə halda həmin hüquqlar inzibati metodların tətbiq edilməsi ilə müdafiə olunur. Bir də qarışıq müdafiə forması vardır ki, bu zaman mülki hüquqların müdafiəsi ilə bağlı sahibkarlıq subyektləri öncə inzibati yurisdiksiyadan, bu fayda vemədikdə isə məhkəmə yurisdiksiyasından istifadə edir.

Mülki hüquq və mənafelərin qeyi-ənənəvi müdafiə forması da mövcuddur ki, bu forma da qeyri-hüquqi forma adlanır. Əsas mahiyyəti isə şəxsin öz mülki hüquqlarını və qanunla qorunan mənafelərini müstəqil şəkildə, dövlət və digər səlahiyyətli orqanlara müraciət edilmədən müdafiə etmək imkanını əldə etməsidir.

Məcburedici tədbirlər ancaq hüquq pozuntusu törətmiş şəxslərə tətbiq olunur. Mülki-hüquqi müdafiə formaları isə hüquq pozuntusunun baş verib, verməməsindən asılı olmayaraq hamıya, hər kəsə qarşı ümumi hüquqi məsuliyyəti nəzərdə tutur.

Hüquqi ədəbiyyatda hazırki dövrə qədər sahibkarlıq subyektlərinin ən mühüm hüquqlarının təsnifatı aparılmamışdır. Bu nöqteyi nəzərdən hesab edirəm ki, onların mülki dövriyyə üçün əhəmiyyət kəsb edən əsas hüquqları aşağıdakı kimi təsnifləşdirilsə daha məqsədəuyğun olar:

1. Əmlak hüquqları:

a) əşya hüquqları;

b)öhdəlik hüquqları

2. Qeyri-əmlak hüquqları:

a) sahibkarlıqla bilavasitə əlaqəli olan hüquqlar;

b) sahibkarlıqla dolayı əlaqəli olan hüquqlar

Qeyri-əmlak hüquqları qanunvericilik üçün yeni xarakterli olub, sahibkarlıq fəaliyyəti subyektlərinin öz fəaliyyətlərini daha səmərəli şəkildə həyata keçirmələri üçün mühüm rol oynayır. Dolayı yolla əlaqəli olan qeyri-əmlak hüquqlarına işgüzar nüfuz, şərəf və ləyaqətin müdafiəsi ilə bağlı hüquqlar aiddir.

Əgər biz mülkiyyət və digər əşya hüquqlarının mülki hüquqi müdafiəsindən bəhs edəcəyiksə, öncə əşya hüquqi müdafiə üsullarını ətraflı təhlil etməliyik. Bu cür müdafiə üsullarına subyektiv hüququn tanınması, hüquq pozuntusu baş verməzdən öncə əvvəlki vəziyyətin bərpası, əqdlərin və ya həmin əqdin nəticəsinin etibarsız hesab olunması aiddir. Əşya hüququ vasitələrinin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, onlar mütləq xarakter daşıyan mülkiyyət hüququnun özünün və digər əşya hüquqlarının müdafiəsinə əsaslanır. Əşya hüquqları özündə bir neçə müdafiə tədbirlərini əks etdirir ki, bunlara da mülkiyyət hüququnun tanınması, vindikasiya və neqator daxildir. Bu siyahıya bağlanılmış əqdin etibarsız sayılması barədə iddianı da (restitusiya iddiası) aid etmək olar. Bu tələb yalnız bağlanılmış müqavilənin tərəfi olmayan üçüncü şəxslər tərəfindən irəli sürülə bilər. Onların hər birini detallı şəkildə təhlil edək.

**Şəkil 4**. Mülkiyyət və digər əşya hüquqlarının müdafiəsi




**Mənbə:** A.D.Babayeva, Mülkiyyət hüququnun müdafiəsi üsulları, 2015

Mülkiyyətçi başqasının qanunsuz sahibliyində olan əmlakın geri qaytarılmasını vindikasiya iddiasını irəli sürərək tələb edə bilər. Mülkiyyətçi özünəməxsus əmlakdan istifadədən və həmin əmlakla bağlı sərəncam verə bilmək hüququndan məhrumdursa bu pozuntuların aradan qaldırılması üçün neqator iddiası ilə tələb irəli sürə bilər.

Sahibkarlıq fəaliyyəti subyektlərinin mülkiyyət hüquqlarının əşya-hüquqi müdafiə formaları içərisində ən geniş yayılmış müdafiə tədbirlərindən biri vindikasiya ilə neqator iddialarıdır. Vindikasiya iddiasına görə mülkiyyətçi öz əmlakının ancaq natura formasında qaytarılmasını tələb edə bilər. Əmlak natura halında mövcud deyilsə, bu halda mülkiyyətçi əmlakın geri qaytarılması üçün vindikasiya iddiası deyil, ona dəymiş zərərin əvəzinin ödənilməsi üçün ümumi mülki-hüquqi iddia verməlidir. Vindikasiya prosesində tərəflər aşağıdakılardır:

- iddiaçı kimi əşyaya faktiki sahibliyi olmayan mülkiyyətçi;

- cavabdeh kimi həm əşyanı faktiki saxlayan, həm də onun qanuni sahibi (vicdanlı və ya vicdansız sahiblik)

Əşyanın onun olmadığını bilən və buna baxmayaraq özünü sanki əşyanın ona məxsus olması kimi aparan oğrunun sahibliyi vicdansız sahibliyə misal ola bilər. Vicdanlı sahib isə o şəxslərdir ki, əmlakı özgəninkiləşdirmək hüququ olmayan şəxslərdən əvəzli qaydada əldə edir və həmin hüququn olub-olmamasını bilmir və bilməli deyil. Vicdansız sahibdə isə bunun tamamilə əksi müşahidə olunur. Sözsüz ki, bu iki mülkiyyətçinin məsuliyyəti eyni ola bilməz. Vicdanlı mülkiyyətçi iddia verilən vaxtdan əşyanın mövcud vəziyyətinə görə məsuliyyət daşıyırsa, vicdansız mülkiyyətçi iddia verilənə qədər əşyanın məhv olmasına görə məsuliyyət daşıyır. Yəni iddia verildikdən sonra təqsirinin olub olmamasından asılı olmayaraq əşyanın məhvinə görə məsuliyyət daşıyır. Mülkiyyətçi vicdansız sahibdən əmlakını geri tələb edərkən, əmlakın vicdansız sahibdə olduğu bütün dövr ərzində onun götürdüyü yaxud götürməli olduğu bütün mənfəətin qaytarılmasını yaxud əvəzinin ödənilməsini də tələb edə bilər.

Vindikasiya iddiasına MM-ə əsasən belə bir anlayış verilir ki, əgər mülkiyyətçinin əmlakı qanunsuz şəkildə başqasının sahibliyindədirsə, onun öz əmlakını geri tələb etmək hüququ var. Lakin vindikasiya iddiasının predmeti ilə bağlı hüquqi ədəbiyyatda vahid fikir formalaşmamışdır. Əgər mübahisələndirilən əmlakın mübahisə tərəflərinin hər hansı birinə məxsus olmasını təsdiqləyən əsaslı sübutlar yoxdursa, burada artıq vindikasiya iddiası yox, onu əvəzləyən başqa müdafiə üsullarından istifadə edilməlidir. Məsələn, mülkiyyət hüququnun tanınması haqqında iddia.

Vindikasiya iddiasının iki növü fərqləndirilir:

1) daşınar əşyalarla bağlı vindikasiya iddiası;

2) daşınmaz əşyalarla bağlı vindikasiya iddiası

Bir çox müəlliflərin fikrinə görə, daşınmaz əşyalarla bağlı vindikasiya iddiasının ayrıca bir növ kimi göstərilməsinə heç bir ehtiyac yoxdur. (Суханов Е.А, Матеи У.Р, 2006: s. 369) Bu müəlliflər fikirlərini belə əsaslandırırlar ki, müasir dövrdə daşınmaz əmlak alqı-satqı zamanı hüquqi cəhətdən rəsmiləşdirilir və bununla bağlı

dövlət reyestrində qeydlər aparılır. Dövlət qeydiyyatı rəsmi qeydiyyata alınmış daşınmaz əmlakın məhkəmə mübahisələndirilməsi üçün yeganə sübut növü kimi çıxış edir. Əgər daşınmaz əmlakla bağlı vindikasiya iddiası irəli sürülürsə demək ki, mülkiyyət hüququnu pozan hərəkətlər kimi reyestrə düzgün olmayan qeydlər daxil edilmişdir. Bu zaman isə daşınmaz əşyalarla bağlı vindikasiya iddiası deyil, mülkiyyət hüququnun tanınması barədə iddia qaldırıla bilər. Əgər mülkiyyətçi qarşı tərəfin törətdiyi maneəyə görə mülkiyyət hüququnu hayata keçirə bilmirsə, belə halda da vindikasiya iddiasından deyil, neqator iddiasından istifadə etməlidir. Vindikasiya iddiasının da verilməsi üçün mülkiyyətçi ilk növbədə mübahisə obyekti kimi əmlakın, əşyanın onun mülkiyyətində olmasını sübut etməlidir. Buna məhkəmə praktikasında nəzər yetirək:

İşin hallarından məlum olur ki, İddiaçı və Cavabdeh arasında icarə münasibətləri olmuşdur. Belə ki, cavabdeh icarə obyektini iddiaçıya icarəyə vermişdir. Lakin müəyyən müddətdən sonra onlar arasındakı münasibətlər pozulduğu üçün cavabdeh məhkəməyə müraciət edərək, həmin şəxsin (iddiaçı) icarə obyektindən çıxarılmasını və daxil olmasının qadağan edilməsini istəmişdir. Məhkəmə cavabdehin iddiasını təmin etmişdir. Daha sonra iddiaçı, tələb irəli sürərək bildirmişdir ki, icarə obyektində ona məxsus olan əşyalar qalmış və qaytarılmamışdır. Məhkəmə iclasında işə baxış zamanı aydın olmuşdur ki, iddiaçı məhkəməyə müraciətində haqlıdır. Onun tələbi təmin edilmiş, qətnamə MM və MPM-in uyğun maddələri ilə əsaslandırılmışdır.

Amma Cavabdeh məhkəmənin qənaətinin əsassız və sübutsuz olduğunu əsaslandıraraq, qətnamənin ləğv edilməsi, iddianın rədd olunması ilə bağlı apellyasiya şikayəti vermişdir. Apellyasiya instansiya məhkəməsi MM-in 157.2-ci maddəsinə əsasən mübahisəli əşyaların cavabdehdə qalmasını sübut etmək vəzifəsinin iddiaçının üzərinə düşdüyünü bildirmiş, iddiaçı isə bunu sübuta yetirmişdir. Bütün hallar nəzərə alınaraq kollegiya iddiaçının tələbində haqlı olduğu qənaətinə gəlmişdir. Bundan sonra Cavabdeh kassasiya şikayəti versə də, kassasiya instansiyası məhkəməsi apellyasiya məhkəməsi tərəfindən mübahisə ilə bağlı hüquq

normalarının düzgün tətbiqini əsas gətirərək, qətnaməni ləğv etməmişdir. (AR Ali Məhkəməsi Mülki kollegiyasının Qərarı. İş № 2(102)-1186/2022)

Vindikasiya iddiasından danışarkən fiktiv sahibkarlarla bağlı anlayışı ötürmək olmaz. Hüquqi ədəbiyyatda fiktiv sahibkarlıqla bağlı ziddiyətli şərhlər var. Fiktiv sahibkarlığın iki növü fərqləndirilir: birinci qrup fiktiv sahibkarlar əşya ilə bağlı vindikasiya iddiasının məhkəməyə verilməsindən öncə əşyanı məhv etmək və ya özgəninkiləşdirmək yolu ilə əsl sahibkar qarşısında cavab verməkdən imtina edir; ikinci qrup fiktiv sahibkarlar isə əsl sahibkarı vindikasiya iddiasını verməkdən çəkindirmək üçün özünü həmin mübahisələndirilən əşyanın qanuni nümayəndəsi kimi inandırmağa davam edir.

Sahibkarlıq fəaliyyəti subyektlərinin istifadə etdiyi növbəti müdafiə formalarından biri kimi neqator iddiası o halda verilir ki, əşya mülkiyyətçinin faktiki sahibliyindədir. Lakin hər hansı şəxs tərəfindən qanunsuz şəkildə mülkiyyətçinin öz hüquqlarını həyata keçirməsinə mane olur.. Bu kimi hərəkətlərin aradan qaldırılması üçün mülkiyyətçi neqator iddiası ilə məhkəməyə müraciət edir. Bu iddia da istənilən hüquq pozana qarşı verilən iddiadır, vindikasiya iddiası kimi qeyri-müqavilə xarakterlidir. Belə ki, tərəflər arasında müqavilə bağlanıbsa və öhdəliklər mövcuddursa onda onlar neqator iddiası ilə məhkəməyə müraciət edə bilməzlər. Hüquqi ədəbiyyatda bir çox müəlliflərin də tərəf çıxdığı bu mövqe daha düzgündür. Çünki neqator iddiası müqavilə işirakçıları tərəfindən üçüncü şəxslərə qarşı irəli sürülür. Məhz üçüncü şəxslər mülkiyyətçiyə öz mülkiyyət hüquqlarını həyata keçirməyə qanunsuz olaraq maneəçilik törədir. Məhkəmə praktikasında bu mövzu ilə bağlı bir məsələyə baxaq:

S.N.Məmmədovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki İşlər üzrə Məhkəmə Kollegiyasının aktlarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" AR Konstitusiya Məhkəməsinin qərarı ilə faktiki olaraq restitusiya və vindikasiya iddialarının rəqabəti qadağan edilmişdir. İşin materiallarından görünür ki, E.T.Abdullayeva kommersiya bankından 30.000 ABŞ dolları kredit götürmüş, lakin krediti qaytarmadığına görə bank həmin girov qoyulmuş mənzili

F.R.Muradova satmışdır. F.R.Muradov isə göstərilən mənzili S.N.Məmmədovaya satmışdır. Lakin müəyyən müddət sonrası mənzilin ilkin sahibi E.T.Abdullayevanın qızı K.A.Miriyeva bu mənzilin satılmasına razılığın verilmədiyini, saxta sənədlərlə mənzilin satıldığını əsaslandıraraq iddia ilə məhkəməyə müraciət etmiş, məhkəmə onun iddiasını təmin etmişdir. Bundan sonra əmlakı vicdanlı əldə edən S.N.Məmmədova E.T.Abdullayevaya və F.R.Muradova qarşı iddia ərizəsi verərək, alqı-satqı müqaviləsi ilə bağlı ödənişlərin qaytarılmasını və dəymiş ziyanın ödənilməsini tələb etmişdir. İşə cavabdeh qismində cəlb edilən bankdan (mənzilin alqı-satqısı və təmir-tikinti zamanı xərclənən) pulların tutulması barədə qətnamə çıxarılmışdır. Bundan sonra həmin bank kassasiya şikayəti vermiş və Azərbaycan Respublikası Ali Məhkəməsinin MİÜK Ş.N.Məmmədovaya ödəniləcək məbləğlərin azaldılması barəsində qərar qəbul etmişdir. Bundan sonra S.N.Məmmədova məhkəmə aktları ilə Konstitusiyada təsbit olunan mülkiyyət, zərərin ödənilməsini tələb etmək, hüquq və azadlıqdarın məhkəmə təminatı və s. hüquqların pozulduğunu bildirərək Konstitusiya Məhkəməsinə şikayət vermişdir. Konstitusiya Məhkəməsi isə həmin işlə bağlı olaraq Azərbaycan Respublikası Mülki Məcəlləsinin 157-ci maddəsinə istinad etmişdir. Bununla əlaqədar çıxarılmış məhkəmə qərarları AR Konstitusiyasının 60-cı maddəsinə uyğun olmadığına görə qüvvədən düşmüş hesab edilmişdir. (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fərdi şikayətlər üzrə qərarlarının toplusu: 2005, s. 158-168)

Neqator iddiasının əsasını mülkiyyətçinin sahib olduğu əmlak üzərində istifadə və sərəncam vermək hüquqlarının həyata keçirilməsinə mane olan üçüncü şəxslərin qeyri-qanuni hərəkət və hərəkətsizliyi təşkil edir. Bu zaman cavabdehin üzərinə sübutetmə vəzifəsi qoyula bilməz. Belə ki, müvafiq vəzifə iddiaçının üzərinə qoyulur ki, həmin subyekt öz hərəkətlərinin qanuniliyini sübut etsin. Məhkəmə təcrübəsində eyni zamanda belə bir hal formalaşmışdır ki, əgər əşyanın mülkiyyətçisinin əmlakdan istifadə zamanı mövcud maneələrin aradan qaldırılması ilə bağlı tələbləri təmin olunsa da həmin maneələr mülkiyyətçini əmlakdan istifadə, əmlaka sahiblikdən və əmlakla bağlı sərəncam vermək hüququndan məhrum etmirsə, o zaman bu kimi hallar üçüncü şəxsin təqsiri ilə əlaqələndirilmir. Əgər

üçüncü şəxslərin qanunsuz hərəkətləri mülkiyyətçiyə hansısa zərəri yetiribsə, onda bu fəaliyyət üçüncü şəxsə aid olunur və dəyən zərərin ödənilməsi kimi məsələ meydana gəlir.

Mülki-hüquqi məsuliyyətin yaranması üçün delikt öhdəliyi mövcud olmalıdır. Deliktlər mülki hüquqda xüsusi yer tutan bir institutdur. Delikt öhdəliklərinin başlıca xüsusiyyətlərindən biri onun müqavilə münasibətlərində olmayan şəxslər arasında yaranmasıdır. Delikt öhdəliklərində ziyan vurulmuş şəxs tələb hüququna malik olan şəxsdir. Ziyan vuran şəxs isə vəzifə daşıyan şəxsdir. Yəni delikventdir. Bu cür öhdəlik delikt öhdəliyidir. Ona görə də yaranan həmin kateqoriya münasibətləri MM-in Öhdəliklərin icrası fəsli nizama salır.

Hüquq ədəbiyyatında iddiaların mühüm növlərindən biri kimi eyni zamanda vindikasiya iddiası ilə rəqabətdə olan kondikasiya iddialarını da göstərmək olar. Kondikasiyaları hansı əsasdan yaranması məlum olmayan və sivil hüququna əsaslanan iddialar kimi müəyyən etmək olar. Məsələn, iddiaçı kondikasiyanın köməyi ilə məlum məbləği tələb edə bilər, lakin iddianın məzmununda cavabdehin bu məbləği borc müqaviləsi üzrə və s. ödəməli olması göstərilmir. Kondikasiya iddiası ilə vindikasiya iddiasını ortaq cəhəti odur ki, hər iki iddia əmlakın naturada qaytarılmasını əsas tutur. Onları bir birindən fərqləndirən əsas cəhətlər isə aşağıdakılardan ibarətdir:

- Vindikasiya iddiasının obyekti kimi ancaq o əşyalar çıxış edir ki, həmin əşyalar məhz fərdi əlamətlərilə müəyyən olunur. Kondikasiya iddiasının obyekti isə bir qayda olaraq, cinsi (növ) əlamətlərilə müəyyən olunan əşyalardır.
- Vindikasiya iddiasının subyekti odur ki, əşyaya sahiblik hüququnu itirsə də, mülkiyyətçi statusundan məhrum olmur. Bunun əksinə, mülkiyyətçi statusundan məhrum olan şəxs isə kondikasiya iddiasının subyekti kimi çıxış edir. Kondikasiya iddiasında mübahisəli əşya cinsi əlamətlərə görə müəyyən olunduğundan bu əşya başqası tərəfindən əldə olunanda həmin tərəfin əmlakı ilə qarışır və tərkibliyində qalır. Elə bu səbəbdən də həmin əşya üzərində mülkiyyətçi hüququnu itirir.

- Vindikasiya iddiası təmin olunarsa sözügedən əşya natura şəklində subyektə geri qaytarılır. Kondikasiya iddiası təmin olunduqda isə həmin əşyanın əvəzinə onun müəyyən cinsinə bərabər olan əşya qayıdır.
- Vindikasiya iddiası əşya hüququ, kondikasiya isə öhdəlik hüquq müdafiəsi üsullarına aiddir.

Əşya hüquqi müdafiə üsullarının öhdəlik hüququnun müdafiə üsullarından fərqləndirilməsi mühüm əhəmiyyət kəsb edən amillərdən biridir. Əşya hüquqi müdafiə üsulları sahibkarlıq fəaliyyəti subyektlərinin mülki hüquqlarını birbaşa formada müdafiə edirsə, öhdəlik hüquqi müdafiə isə həmin münasibətləri dolayı formada müdafiə edir. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi əşya-hüquqi müdafiə və ya mülkiyyət – hüquqi formalarının yaranması üçün müəyyən mülkiyyətə və ya əşyaya sahib olan digər şəxslər arasında müvafiq mülki hüquq münasibətinin mövcud olması zəruri deyildir. Çünki əşya hüquqi müdafiə formasını hamı və hər kəsə qarşı yönələn mülki hüquqi məsuliyyəti ifadə edir və hər bir halda mülkiyyətə sahib olan şəxsin mülki hüquqlarını istənilən üçüncü şəxsin qeyri-qanuni hərəkətlərindən müdafiə edir. Ancaq öhdəlik hüquqi müdafiə forması adından da göründüyü kimi yalnız müəyyən öhdəliyin mövcud olması ilə əlaqədardır. Yəni hüququ pozulmuş şəxs ilə hüquq pozuntusuna yol vermiş şəxs arasında müəyyən mülki hüquq münasibəti, müqavilə münasibəti mövcud olmalıdır. Burada bir tərəf müəyyən hüquqlara, digər tərəf isə həmin hüquqlardan irəli gələn müəyyən öhdəliklərə, vəzifələrə malik olmalıdır. Əgər əşya hüquqi müdafiə forması hüquqları pozulmuş şəxs ilə hüquq pozuntusuna yol vermiş qeyri-müəyyən üçüncü şəxs arasındakı münasibətləri tənzim edirsə, onda öhdəlik hüquq müdafiə forması konkret subyektlər arasında yaranmış mülki hüquq mübahisəsini va ya konkret olaraq mülki hüquq pozuntusunu tənzim edir. Beləliklə, həm əşya hüquqi müdafiə forması, həm də öhdəlik hüquqi müdafiə forması mahiyyət etibarilə eyni məqsədi ifadə edirlər. Belə ki, başlıca fərq odur ki, əşya hüquqi müdafiə üsulları qeyri-müəyyən subyektlər dairəsində tətbiq edilirsə, öhdəlik hüquqi müdafiə üsulları isə konkret subyektlərə şamil edilir.

Sahibkarlıq fəaliyyəti subyektlərinin qeyri əmlak hüquqlarından danışarkən işgüzar nüfuz, şərəf və ləyaqəti xüsusilə qeyd etməliyik. Şərəf, ləyaqət, işgüzar nüfuz hüquqlarının pozulması hallarında bu pozuntularla bağlı qaldırılan iddialarda həqiqəti əks etdirməyən informasiyaların təkzib edilməsi ilə yanaşı, vurulmuş istər maddi, istər mənəvi zərərin qarşılanması da tələb edilə bilər.

Qanunvericiliyin və məhkəmənin belə yanaşmasını tam əsaslı hesab etmək olar ki, şərəf və ləyaqət mənəvi dəyər atributları olduğundan yalnız fiziki şəxslərə - fərdi sahibkarlara və hüquqi şəxsin rəhbərlərinə şamil oluna bilər. Hüquqi şəxslər isə şərəf və ləyaqət üçün zəruri olan psixoloji keyfiyyətlərə malik olmadığından şərəf və ləyaqət deyil, işgüzar nüfuz hüquqlarının pozulması onlara aid edilə bilər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun izahına əsasən, mənəvi zərərin ödənilməsini ancaq fiziki şəxslər tələb edə bilər. Fiziki şəxslərin işgüzar nüfuzuna xələl gətirən informasiyaların yayılması ilə əlaqədar mənəvi zərərin ödənilməsini nizama salan normalar sahibkar barəsində bu cür informasiyaların yayılması hallarına da aid edilir. Hüquqi şəxslərin fəaliyyəti ilə bağlı həqiqətdən kənar informasiyaların yayılması, haqsız rəqabət üsulları kimi fəaliyyət nüfuzunun aşağı salınması, təqlid olunması, istehlakçılarda fikir ayrılığı yaratmağa çalışılması halları ilə işgüzar nüfuz hüququnun pozulması hüquqi şəxsə imkan verir ki, MM-in müvafiq maddələrinə uyğun olaraq maddi zərərin ödənilməsini tələb etsin.

Bu deyilənlərdən belə qənaətə gələ bilərik ki, sahibkarlıq fəaliyyətinin subyektləri qeyri-əmlak dəyərlərinə (şərəf, ləyaqət, işgüzar nüfuz) də malikdirlər. Bu hüquqların mülki-hüquqi müdafiəsi üsullarının fərqləndirici cəhəti hüququ pozanın təqsirindən asılı olmayaraq onların bərpaedici xarakter daşımasıdır. (Фаддеева Т.А, 2004: s. 382, 383)

Qeyri-əmlak hüquqlarının müdafiəsi zamanı AR Mülki Məcəlləsinin 17-ci maddəsinə görə qeyri-əmlak hüquqlarının məzmununa zidd olmayan müdafiə metodlarından da istifadə oluna bilər. Yekdil fikirlər əsasında qəbul olunmuş yanaşmaya görə mühafizəedici mülki hüquq münasibətləri baxımından şərəf, ləyaqət və işgüzar nüfuzun mülki-hüquqi müdafiəsi üç üsulla həyata keçirilə bilər:

1) mənəvi zərərin kompensasiyası yolu ilə;
2) şərəf və ləyaqəti ləkələyən həqiqətdən kənar məlumatların təkzib edilməsi yolu ilə;
3) zərərin əvəzinin ödənilməsi yolu ilə

Burada ikinci üsul mülki hüquqi müdafiə tədbiri olduğu halda, digər üsullar mülki hüquqi məsuliyyət tədbiri kimi çıxış edir. Bu tədbirlərin fərqləndirilməsi ilə bağlı A.P.Serqeyev qeyd edir ki, mülki hüquqi məsuliyyət tədbirləri mülki hüquq pozuntusunu törədən şəxsin təqsiri olan zaman, mülki hüquqi müdafiə tədbirləri isə baş vermiş mülki hüquqi pozuntunu törədən şəxsin təqsirinin olub olmamasından asılı olmayaraq ümumi formada tətbiq olunur. (Сергеев А.П, 2004: s. 341)

Mənəvi zərər belə xarakterizə olunur ki, şəxsə məxsus qeyri-maddi nemətlərə qəsd edən və ya onun şəxsi qeyri-əmlak yaxud əmlak hüquqlarını pozan haqsız bir hərəkət (hərəkətsizlik) nəticəsində fiziki şəxsə vurulan mənəvi-fiziki iztirab (əzab) başa düşülür. (Məmmədov Z.Ə, 2007: s. 7)

Mənəvi zərərə görə təzminatı müəyyən etmək bir sıra çətinliklər doğurur. Ə.Hacıbəylinin fikrincə,bu ruhi sarsıntıların, mənəvi iztirabların maddi qiymətləndirilməsinin çətinliyi, hətta absurdluğu ilə bağlıdır. (Hacıbəyli Ə.B, 2004; s. 11) Məhkəmə praktikasında çox zaman həddindən artıq böyük məbləğin ödənilməsi tələb olunur. Mənəvi-fiziki iztirabların dərəcə və xarakteri, həmçinin cavabdehin təqsiri, əmlakla bağlı vəziyyəti və s. kimi önəmli hallar nəzərə alınır və istənilən halda bu kimi zərərin ödənilməsi ilə bağlı səciyyələnən qərarlar məhkəmənin səlahiyyətindədir. Vurulmuş mənəvi zərərin ödənilməsi ilə bağlı məhkəmə prosesinə nəzər salaq:

A kommersiya mərkəzi məhkəməyə iddia ərizəsi ilə müraciət edərək, B birgə müəssisəsindən vurulmuş ziyanlara görə 67.296.715 manat və 100.000 manat dövlət rüsumunun ödənilməsini xahiş etmişdir. Məhkəməyə təqdim olunan sənədlərdən görünür ki, B birgə müəssisəsi A kommersiya mərkəzinə qarşı borcun ödənilməsinə dair iddia tələbi ilə əlaqədar 159/03-31/2001 saylı iş üzrə cavabdehin vəsatətinə əsasən məhkəmənin qərarı ilə A kommersiya mərkəzinin hesablaşma və valyuta hesabına məhkəmə tərəfindən həbs qoyulmuşdur. Məhkəmənin qətnaməsi ilə B

Azərbaycan-Türkiyə birgə müəssisəsinin A kommersiya mərkəzinə qarşı 40000 manat məbləğində iddia tələbi aidiyyəti üzrə rayon məhkəməsinə göndərilməsi qərarı alınmışdır. İşə apellyasiya qaydasında baxılaraq 31 mart 2001-ci il tarixli qətnamə ilə 40000 məbləğində iddia tələbi rədd edilmiş və A kommersiya mərkəzinin valyuta və hesablaşma hesabında olan pul vəsaitlərinin üzərinə qoyulmuş həbs götürülmüşdür. Kassasiya qaydasında işə baxılarkən Kollegiyanın qərarı ilə İqtisad Məhkəməsinin qətnaməsi dəyişiklik edilmədən qüvvədə saxlanılmışdır. Məhkəmə hesab etmişdir ki, iddiaçının 2400 manat məbləğində tələbi təmin edilməlidir. Vurulmuş ziyanlara görə 3.405.343 manat və 20000 məbləğində ödənilmiş dövlət rüsumu cavabdehdən tutulub iddiaçıya qaytarılmalıdır. (AR Ali Məhkəməsinin qərarlarının toplusu. Mülki işlər üzrə məhkəmə kollegiyası, 2004: s. 455)

Sahibkarlıq fəaliyyəti subyektlərinin işgüzar nüfuzunun, habelə şərəf və ləyaqətinin müdafiəsi iki qaydada həyata keçirilə bilər.

1. Məhkəmə qaydasında
2. Məhkəmədənkənar qaydada

Əgər mənəvi zərərin ödənilməsi yalnız məhkəmənin qərarı ilə mümkündürsə, şərəf, ləyaqət və işgüzar nüfuzu ləkələyən dərc olunmuş məlumatların təkzibi həm də məhkəmədənkənar qaydada mümkündür. Sahibkarlıq fəaliyyəti subyektlərinin qeyd olunan qeyri-əmlak hüquqlarının məhkəmədənkənar müdafiəsi formasının əsas xüsusiyyəti ondan ibarətdir ki, tərəflər (sahibkarlıq fəaliyyətinin subyekti va böhtan xarakterli və həqiqətə uyğun gəlməyən məlumatları yayan şəxs) arasında mövcud olan mübahisəli münasibətlər məhkəmə orqanlarının vasitəçiliyi olmadan konflikt iştirakçılarının özü tərəfindən həll edilə bilər.

KİV-də yayılan məlumatda vətəndaşın nəinki şərəf və ləyaqətinə, hətta onun mənafeyinə toxunulursa, belə hallarda da vətəndaşın KİV-də çıxış etmək hüququ var. KİV-in redaksiyası vətəndaşın tələbini icra etmədikdə, qanunla müəyyən edilmiş qaydada vətəndaş məhkəməyə şikayət edə bilər.

Zərərçəkənin yalan, böhtan xarakterli məlumatların təkzib olunmasına olan hüququna həmin məlumatları yayan şəxsin onların həqiqətə uyğun olmasını sübut edə bilmədiyi təqdirdə həmin məlumatları təkzib etmək vəzifəsi uyğun gəlir.

Sübutetmə prosesində tərəflərin vəzifələri fərqlidir. Bu kateqoriya mülki işlər üzrə məhkəmə icraatında iddiaçı onun şərəf və ləyaqətini alçaldan məlumatlar yayılması faktını təsdiqləməli, bunun üçün sübutlar göstərməli və bu məlumatların üçün onun şərəf ləyaqətinin alçaldan kimi qiymətləndirilməsini açıqlamalıdır. Eyni zamanda, o, bu faktların həqiqətəuyğun olmadığını sübut etməyə borclu deyil və həmin hala istinad etməsi kifayətdir. Bu səbəbdən cavabdeh, iddiaçı barəsində yaydığı məlumatların düzgün olduğunu sübut etməyə borcludur. Cavabdeh bunu sübuta yetirə bilmədiyi halda, sübutetmə prezumpsiyası prinsipindən çıxış edərək, iddiaçının təkzib haqqında tələbləri əsaslandırılmış sayılır. Burada cavabdeh qismində həm fiziki, həm də hüquqi şəxslər belə məlumatları yayan şəxs kimi ola bilər.

"Kütləvi informasiya vasitələri haqqında" qanunda təkzibin verilməsi qaydaları da ətraflı qeyd edilmişdir. Belə ki, təkzib verilən zaman burada hansı məlumatın həqiqətdən kənar olduğu, həmin məlumatın KİV-də nə zaman və necə dərc olunması qeyd olunur. Lakin KİV redaksiyaları məhkəmə qərarı ilə təkzibi dərc edən zaman məhkəmənin qərarını şübhə altına alan şərhlər də nəşr edirlər. Tədqiqatçı alim A.A.Vlasov KİV-lərin belə hüquqdan məhrum edilməsini təklif edir. (Власов А.А, 2000: s. 17) Lakin belə yanaşma KİV-lərin kütləvi informasiya azadlığına olan hüququnu pozduğundan, hesab edirəm ki, bu düzgün yanaşma deyildir. Əgər təkzibə verilən şərhdə hüquq pozuntusu olarsa zərərçəkən yeni iddia ilə məhkəməyə müraciət edə bilər.

Təkzibin məqsədi şərəf, ləyaqət və işgüzar nüfuz kimi qeyri-maddi aktivlərin cinayət baş verməmişdən əvvəlki vəziyyətinə qaytarılması olub, sahibkarlıq fəaliyyəti subyektləri haqqında yayılan yalan məlumatı inkar etməklə vətəndaş hüquqlarının müdafiəsinin ümumi üsulu kimi çıxış edir.

KİV haqqında qanunun normalarının tətbiqi belə yanlış bir təsəvvür yarada bilər ki, qanunvericilikdə sahibkarlıq fəaliyyəti subyektlərinin şərəf, ləyaqət və işgüzar nüfuzunun müdafiəsi ilə bağlı xəbərdarlıq şərti müəyyən edilmişdir: artıq qeyd edildiyi kimi KİV-in redaksiyası tərəfindən vətəndaşın tələbi təmin edilmədikdə, həmin vətəndaşın məhkəməyə şikayət etmək hüququ yaranır. Lakin

buna tərəflər arasında mübahisənin həllinin pretenziya qaydası kimi baxmaq olmaz. Çünki MM-nin 23-cü maddəsinə görə fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatların təkzib olunması tələbi ilə birbaşa məhkəməyə müraciət edə bilər. Həmçinin «Kütləvi informasiya vasitələri haqqında» qanunun 44-cü maddəsində barələrində kütləvi informasiya vasitəsində şərəf və ləyaqəti ləkələyən, böhtan və təhqir xarakterli məlumatlar verilən fiziki və hüquqi şəxslərin birbaşa məhkəməyə müraciət etmək hüququ təsbit edilmişdir. Şərəf və ləyaqətin müdafiəsi ilə bağlı məhkəmə təcrübəsinə nəzər yetirək:

İşin hallarına görə, iddiaçılar MMC və qanuni təmsilçisi İddiaçı2 məhkəmədə Cavabdehə qarşı iddia qaldıraraq, cavabdehdən mənəvi zərərə görə 100.000 manat pulun tutulub ona ödənilməsi, cavabdehin üzərinə onlar barəsində yazdığı şikayət ərizələrində göstərilən məlumatların təkzib olunması, həmin təkziblərin onlar barəsində əsassız şikayətlər yazdığı orqanlara göndərilməsi vəzifəsinin qoyulması, habelə cavabdehin üzərinə onlardan üzr istənilməsi vəzifəsinin qoyulması barəsində qətnamənin qəbul olunmasını xahiş ediblər.

Müvafiq qətnamə ilə iddia qismən təmin edilmiş, şikayət ərizələrində göstərilən məlumatların İddiaçı2-nin şərəf və ləyaqətini alçaldan, işgüzar nüfuzunu ləkələyən, MMC-nin işgüzar nüfuzunu alçaldan, həqiqətə uyğun olmayan hesab edilmiş; habelə cavabdehin üzərinə iddiaçılar barəsində əsassız şikayətlər yazdığı orqanlara təkzib göndərilməsi vəzifəsi qoyulmuş;cavabdehin üzərinə həm fiziki şəxs, həm də MMC-nin qanuni təmsilçisi olaraq İddiaçı2-dən üzr istəməsi vəzifəsi qoyulmuş; yalan məlumatlar yayılması nəticəsində mənəvi zərərə görə 1.000 manat, ödənilmiş dövlət rüsumuna görə 30 manat, cəmi 1.030 manat pulun tutulub iddiaçılara verilmiş və digər hissələrdə iddianın rədd olunması qət edilmişdir. Tərəflər ayrı-ayrılıqda qətnamədən apellyasiya şikayətləri veriblər.

Apellyasiya instansiyası məhkəməsi tərəfindən isə iddiaçıların apellyasiya şikayətinin tam təmin edilmədən saxlanılması qət edilmişdir. İddiaçılar kassasiya şikayəti verib, iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv olunmasını, iddianın tam təmin olunmasıyla bağlı yeni qərar qəbul olunmasını xahiş etsələr də Kassasiya instansiyası məhkəməsi qətnamənin ləğv olunması yaxud

dəyişdirilməsi üçün əsasın olmadığı qənaətinə gəlmişdir. (Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının Qərarı İş № 2(102)-5524/2021)

3. Zərərin əvəzini ödəmə hərtərəfli müdafiə üsuludur. Elə bu xüsusiyyətinə görə də məsuliyyət tədbiri kimi həm əmlak, həm də qeyri-əmlak hüquqlarının pozulması zamanı onların müdafiəsi və kompensasiya edilməsi məqsədilə tətbiq olunur. Aşağıdakı şəkildə zərərin növləri verilmişdir.

**Şəkil 5.** Zərərin növləri




**Mənbə:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi

Hüquq ədəbiyyatında zərər bir şəxsin digərinin əmlakına münasibətdə qanunsuz hərəkətləri nəticəsində vurulmuş maddi zərər kimi qəbul edilir. Zərərin əvəzinin ödənilməsi zərərçəkmişə onun hüquqlarını pozan şəxs tərəfindən həmişə pul şəklində ödənilir. Bu məsuliyyət formasının kompensasiya xarakteri daşıması da sırf bu səbəbdəndir. Real zərər mövcuddursa, vurulmuş zərərlə baş vermiş hüquq pozuntusu arasında əlaqə varsa, şəxsin hüquqazidd əməli ilə bağlı təqsiri varsa və bütün bu faktların məhkəmədə sübutu varsa bu halda zərərin əvəzinin ödənilməsi kimi mülki hüquqi məsuliyyət yarana bilər. Bilirik ki, mülki-hüquqi məsuliyyət təkcə qanun pozuntusu ilə deyil, həm də mülki hüquqi müqavilənin tələblərinin pozulması ilə də yaranır. Fiziki və hüquqi şəxslər müqavilə ilə öz hüquq və vəzifələrini müəyyən edə və qanuna zidd olmayacaq şəkildə istənilən müqavilə şərtlərini göstərə bilərlər. Fiziki və hüquqi şəxslər hansısa şəxsə ziyan vurmaq

məqsədilə hüquqlardan sui-istifadə edə bilməz. Məhz bu əsasa görə mülki hüquqi məsuliyyətin aşağıdakı növləri fərqləndirilir.

1) müqavilə;

2) müqavilədənkənar

Müqavilə məsuliyyəti həmişə əmlakla əlaqədar olub əmlak xarakteri daşıyır. Belə ki, müqavilə öhdəliyi borclu tərəfindən icra olunmayanda və ya lazımi qaydada icra olunmayanda o, öz hərəkəti (hərəkətsizliyi) ilə kreditora vurduğu zərəri ödəməlidir. Zərər dedikdə hüququ pozulan şəxslərin öz hüquq və qanuni mənafelərinin bərpası üçün, əmlakına dəymiş ziyanı aradan qaldırmaq üçün çəkdiyi xərclər (real zərər) və belə bir hüquq pozuntusu olmasaydı əldə edə biləcəyi gəlir və digər bəhərlər (əldən çıxmış fayda) nəzərdə tutulur.

Məsuliyyətin müqavilə və ya qeyri-müqavilə növlərinə bölünməsinin hüquqi əhəmiyyəti olduqca böyükdür. Belə ki, qeyri-müqavilədən əmələ gələn forması və həcmi yalnız ümumi formada qanunla mülki qanunvericiliklə müəyyən edilir. Lakin müqavilədən irəli gələn məsuliyyətin forma və həcmi həm qanunun müvafiq normaları ilə, həm də qanunun həmin normalarına zidd olmayan müqavilənin şərtləri əsasında müəyyən edilir. Müqavilə münasibətlərinə daxil olan tərəflər müqavilədə hüquq pozuntusuna, öhdəliklərin icra edilməməsi və ya lazımınca icra edilməməsinə görə elə bir məsuliyyət forması və ya növü nəzərdə tuta bilərlər ki, həmin məsuliyyət növü qanunda nəzərdə tutulmasın və eyni zamanda qanuna da zidd olmasın. Tərəflər eyni zamanda qanunda ayrı qayda nəzərdə tutulmadığı hallarda hüquq pozuntusuna görə məsuliyyətin forması və ya həcmini artıra və ya azalda bilərlər.

Öhdəliklərin icra edilməməsi dedikdə müqavilə üzrə vəzifə daşıyan şəxsin üzərinə qoyulmuş vəzifələri icra etməkdən boyun qaçırması başa düşülür. Lazımınca icra edilməməsi dedikdə isə vəzifə daşıyan şəxsin müqavilə üzrə müəyyən edilmiş hüquqlarını qismən icra etməsi başa düşülür. Onu da nəzərə almaq lazımdır ki, dəymiş zərərin həcmi öhdəliyin tam və ya lazımınca icra edilməməsindən asılı deyildir. Belə ki, bu zaman vurulmuş zərərin həcmi və xüsusiyyəti mühüm əhəmiyyət kəsb edir. (Əliyev V.M, 2010: s. 78) Bu məsələ ilə əlaqədar məhkəmə praktikasına müraciət edək:

İddiaçı fərdi sahibkar Əliyev Baxış Museyib oğlu cavabdeh “Azərbaycan Qaz Emalı” ASC-nə qarşı 140 ton texniki butan məhsulunun iddiaçıya göndərilməsinin cavabdehə həvalə edilməsi və ya cavabdeh tərəfindən 21364 məbləğində vurulmuş zərərin ödənilməsi və 1922 manat 76 qəpik bank faizinin və ödənilmiş 19 manat 80 qəpik dövlət rüsumunun, cəmi 2552 manat 96 qəpik məbləğinin cavabdehdən tutulması barədə iddia ərizəsi ilə Azərbaycan Respublikası 1 saylı Yerli İqtisad Məhkəməsinə müraciət etmişdir. İddiaçı məhkəmə iclasında çıxış edərək müvafiq lisenziya əsasında qaz satışı ilə məşğul olduğunu və 11 may 2005-ci ildə onunla cavabdeh arasında mal göndərmə müqaviləsinin bağlandığını bildirmişdir. Həmin müqaviləyə görə cavabdeh 400 ton miqdarında texniki butan məhsulunu cavabdehə göndərməyi, cavabdeh isə əvəzində 1 ton texniki butanın müqabilində 153 manat 40 qəpik pulu cavabdehə ödəməyi öhdəsinə götürmüşdür. Lakin cavabdeh 01.06.2006-cı il tarixdən iddiaçıya mal göndərilməsini dayandırmış və qalan 140 ton texniki butanı göndərməmişdir. Cavabdeh müqavilə öhdəliyini icra etməkdən imtina etməklə iddiaçıya 21364 manat maddi zərər vurmuşdur. İddiaçı ilə cavabdeh arasında bağlanmış müqavilənin qüvvədə olma müddəti başa çatmadığı üçün məhkəmə belə hesab etmişdir ki, iddiaçının iddia tələbi 140 ton texniki butan məhsulunun iddiaçıya göndərilməsinin cavabdeh “Azərbaycan Qaz Emalı” ASC-yə həvalə edilməsi hissəsində əsaslıdır. Məhkəmə öz qərarında göstərmişdir ki, “özgəsinin pul vəsaitini qanunsuz saxlamaqla, onu qaytarmaqdan boyun qaçırmaqla, onun ödənilməsini digər şəkildə gecikdirməklə və ya başqa şəxsin hesabına pul vəsaitini əsassız əldə etməklə və ya toplamaqla ondan faydalanmağa görə həmin vəsaitin məbləğindən faizlər ödənilməlidir.” (MM 449.1-ci maddə)

İqtisad Məhkəməsinin qərarına əsasən qanunun bu norması məhsulun deyil, pul vəsaitinin qanunsuz saxlanmasına görə məsuliyyət nəzərdə tutur. İddiaçı qeyd edilən maddədə sadalanan halları təsdiq edən sübutları məhkəməyə təqdim etmədiyi üçün iddia tələbi 1922 manat 76 qəpik bank faizinin tutulması hissəsində əsassız hesab edilməklə rədd olunmuşdur. (AR 1 saylı Yerli İqtisad Məhkəməsinin arxivi)

Müxtəlif məhkəmə instansiyaları tərəfindən sahibkarlıq subyektlərinə vurulmuş zərərin ödənilməsi ilə bağlı mübahisələrə düzgün və ədalətli baxılmaması

etibarsız məhkəmə presedentinin yaranmasına səbəb olur ki, bu da həmin subyektlərin faaliyyətinə mənfi təsir göstərməklə məhkəmə müdafiəsi hüququnu məhdudlaşdırır.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, sahibkarlıq fəaliyyəti subyektlərinə əmlak zərəri bir və ya bir neçə şəxslər tərəfindən vurula bilər. Göstərilən bu halda əmlaka vurulmuş zərərə görə şəxslərin birgə mülki hüquqi məsuliyyəti müəyyən edilməlidir. Bu zaman əsas etibarilə paylı məsuliyyət institutu tətbiq edilir. Belə ki, bu institut müvafiq mülki qanunvericilikdə və sahibkarlıq fəaliyyəti subyektləri arasında olan müqavilədə birgə məsuliyyət və ya məsuliyyət həmrəyliyi müəyyən edilmədikdə tətbiq edilir.

Beləliklə zərərin əvəzinin ödənilməsi sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin öhdəlik və delikt hüququ kontekstində müdafiəsinin ən geniş yayılmış universal formalarından biridir. Belə ki, bu müdafiə forması sahibkarlıq fəaliyyətilə məşğul olan şəxslərin əmlak hüquqlarının və bəzi hallarda qeyri-əmlak hüquqlarının müdafiəsinin ən səmərəli üsuludur. Lakin sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi ilə bağlı bəzi nəzəri və təcrübi problemlər də mövcuddur. Bu problemlər və onların həllinə müvafiq təkliflər üçüncü fəsildə verilmişdir.

## 2.2 Sahibkarlıq fəaliyyətinə və onun subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsinə dövlət dəstəyi

Respublikamızda qanunvericilik çərçivəsində işlənən və sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi naminə uğurla həyata keçirilən iqtisadi siyasət mövcuddur. Bu siyasət sahibkarlıq fəaliyyətinin (kiçik və orta sahibkarlıq fəaliyyəti də daxil olmaqla) inkişafının sürətlənib daha da geniş vüsət almasına, ölkənin sosial-iqtisadi inkişaf tempinin artırılmasında və bu yöndə qarşıya çıxa biləcək problemlərin həlli yolunda sahibkarlığın müstəsna rolunun gücləndirilməsinə və bu istiqamətdə dövlət dəstəyinin, qayğısının daha da artırılmasına, habelə mövcud potensialın həyata keçirilməsini hədəfə almışdır. Məhz

bu məsələləri əsas götürərək sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi istiqamətində qanunvericilik bazasının formalaşdırılması, bürokratik əngəllərin aradan qaldırılıb minimuma endirilməsi, lazımi maliyyə dəstəyinin vaxtında və yerində göstərilməsi, eləcə də digər sahələrdə konkret əhəmiyyət daşıyan işlər görülmüşdür.

Bütün iqtisadi fəaliyyət sahələrində dövlət öz daxili imkanları hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasında və geniş həcmli, sürətli inkişafında bir çox imkanlar yaratmışdır. Həmçinin dövlətin bu istiqamətli dəstəyinin praktiki göstəricisini əsas götürərək bunu da vurğulaya bilərik ki, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün də əlverişli şərait formalaşdırmışdır.

İşgüzar fəaliyyət kimi sahibkarlığın bir çox sahələrini və xüsusiyyətlərini nizama salan müxtəlif iqtisadi qanunlar və qanunvericilik normaları sahibkarlığın hüquqi bazasının təmin olunmasına xidmət edir. Bazar iqtisadiyatı yüksək inkişaf etmiş ölkələrinin təcrübəsinə baxsaq görərik ki, dövlət tərəfindən mülkiyyət hüququnun müdafiəsi və sahibkarlar arasında bağlanan sazişlərin icrasının təmin olunması sahibkarlıq fəaliyyətinin başlıca şərtidir.

Bəllidir ki, əmtəələrin könüllü şəkildə mübadiləsi bazar iqtisadiyyatının başlıca fərqləndirici xüsusiyyətidir. Sahibkarlıq subyektləri bir biri ilə iqtisadi əlaqələr yaratmaq qərarına gəldikdən həmən sonra mübadilə prosesi başlayırsa, bu, dövlətin heç bir hüquqi müdaxiləsi olmadan gerçəkləşdirilir. Amma çox zaman bağlanmış sazişlərlə (kredit, sığorta) onların icrası, əmtəənin dəyərinin ödənilməsi ilə də həmin əmtəənin real əldə olunması arasında müəyyən zaman keçir. Belə vəziyyətdə dövlət bu sazişlərin icrasını müdafiə edir, tərəflərdən hər hansı birinin mənafeyinin pozulmasına qanunvericilik qaydasında yol vermir və sazişlər həyata keçirilərkən saxtakarlığa qarşı hərtərəfli icrasını təmin edir. Ticarəti məhdudlaşdırmaq, inhisarçılıq və qanunun yol vermədiyi digər məqsədlərlə sazişlərin bağlanmasını dövlət müdafiə etməməklə yanaşı, belə halların yaşanmaması üçün qanunlar hazırlayır. Hesab edirəm ki, belə halda sahibkarlıq

fəaliyyəti subyektlərinin məlumatlılıq səviyyəsi yüksək olmalıdır. Bilməlidirlər ki, dövlət hüquqi nöqteyi nəzərdən hansı sazişləri inkar edir, hansılara dəstək verir.

Sahibkarlığa kömək, onun inkişafı hazırda dövlətin iqtisadi siyasətinin başlıca funksiyalarından biridir. Belə siyasətin nəticəsidir ki, sahibkarlıq fəaliyyətilə bağlı qanunvericilik və təşkilati-iqtisadi şərait sistemli şəkildə inkişaf etdirilir və təkmilləşdirilir, sahibkarların fəaliyyətinə maneə törədən səbəblərə qarşı ciddi şəkildə hərtərəfli mübarizə aparılır, sahibkarlıq fəaliyyətinə dövlət tərəfindən dəstəyin səmərəsi dayanmadan yüksəlir və inkişafı məqsədyönlü dövlət proqramları fonunda həyata keçirilir.

Bu gün Azərbaycanda sahibkarlıq fəaliyyəti hüquqi bazaya əsaslanır. Bu baza sahibkarların maliyyə ilə bağlı problemlərinin aradan qaldırılması, sahibkarlığa dövlət maliyyə dəstəyinin artırılması, sahibkarlıq fəaliyyətinə başlamaq şərtlərinin sadələşdirilməsi, effektiv inkişafının təmin olunması istiqamətində təkmilləşir.

Sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsində sahibkarlığa dövlət köməyi, sahibkarlığın dövlət tərəfindən qeydiyyata alınması, müəyyən fəaliyyət növlərinə uyğun razılıq (lisenziya) verilməsi metodlarının təyin olunması, həmçinin sahibkarların hüquq və qanuni mənafelərinin dövlət tərəfindən müdafiə olunmasını xüsusi qeyd etmək yerinə düşərdi. Habelə sahibkarlıq fəaliyyətinə dövlət nəzarəti və sahibkarın məsuliyyəti məsələlərinin hüquqi müstəvidə tənzimlənməsi, bu sahədə hüquq normalarının yetərincə və təkmil formada olması, həmçinin inkişaf etmiş xarici dövlətlərin bu yöndə uğur qazanmış təcrübəsinə əsaslanmaq və ölkəmizdə sahibkarlıq fəaliyyətinin inkişaf səviyyəsinə uyğun olması xüsusi əhəmiyyət kəsb edir.

Bazar iqtisadiyyatının hərəkətverici təbəqəsi kimi sahibkarların fəaliyyətinə dövlət tərəfindən əlverişli və güzəştli şəraitlərin yaradılması, sahibkarlarla dövlət arasında qarşılıqlı maraqların təmin olunması ölkədə iqtisadiyyatın inkişafına təkan yaradır və iqtisadi cəhətdən möhkəmləndirir. Qərb ölkələrinin təcrübəsində sahibkarlığa dövlət köməyinin bir çox forma və istiqamətləri vardır ki, buraya da ilk növbədə vergi güzəştləri, vergidən azadetmə aid olunur. Burada vergitutma əsasən reqressiv xarakter daşıyır.

Ölkəmizdə sahibkarlığa dövlət dəstəyi və qayğısının hüquqi tərəfi, sahibkarlığın dövlət tərəfindən müdafiə və dəstəklənib təqdir olunmasının forma və metodları “Sahibkarlıq fəaliyyəti haqqında” qanunda geniş və müfəssəl şəkildə əksini tapmışdır. Qeyd olunur ki, “Dövlət sahibkarlıq fəaliyyətini qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit sistemləri vasitəsilə tənzimləyir.” (Sahibkarlıq fəaliyyəti haqqında qanun, maddə 9)

Sahibkarlığa dövlət köməyinin istiqamətlərindən danışarkən sahibkarlıq fəaliyyəti subyektlərinin investisiya fəallığının artırılmasını da qeyd edə bilərik. Dövlət güzəştli kreditləri effektiv bazar imkanlarına malik olan, amma aşağı investisiya bazasından dolayı, həmçinin maliyyə vəsaitlərini kənardan cəlbetmə imkanlarının zəif olduğu sahibkarlıq strukturlarına yönəltməlidir. Həmçinin dövlət rəqabətə dözümlü müəssisələrin kredit borclarının ödənilməsi müddətini uzatmaq, kreditin faizlərini və ya kreditə verilən məbləğin bir hissəsini dövlət büdcəsi hesabına silmək yollarından da istifadə etməlidir. Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə dövlət rəqabətə dözümlü müəssisələrin bazarda tutduğu mövqelərini qorumaq məqsədilə həmin müəssisələr tərəfindən istehsal olunan məhsulların alıcısı olub, işgüzar fəaliyyətilə bağlı xərclərinin bir qismini ona geri qaytarır. Hesab edirəm ki, sahibkarlığın stimullaşdırılmasında dövlət tərəfindən bu kimi üsullardan istifadə sahibkarlıq fəaliyyəti üçün əvəzedilməzdir.

Digər istiqamətlərdən biri də müəssisələrin xarici fəaliyyəti və ixrac imkanlarının müxtəlif üsullarla gücləndirilməsidir ki, buna da gömrükdə güzəştlər, ixracda subsidiyalar, kreditə köməklik və s. misal göstərmək olar. Sahibkarların fəaliyyətinə dövlət tərəfindən köməyin istiqamətləri əsasən maliyyə cəhətdən yardımla bağlı olub, müvəqqəti xarakterlidir. Lakin bu o demək deyildir ki, qeyri-maliyyə istiqamətlərində dəstək göstərilmir. Son zamanlarda sahibkarlığa dəstək məqsədilə onların fəaliyyətinə əlverişli şərait yaradan xüsusi ərazilərin (sərbəst iqtisadi zona, kiçik sənaye mərkəzləri və s.) yaradılması geniş yayılmışdır. Bundan əlavə dövlət tərəfindən sahibkarlıq fəaliyyəti subyektlərinə hüquqi cəhətdən yardım edilməsi, dövlətin yaratdığı orqanlar vasitəsilə xidmətlərin göstərilməsi, kadrlarla bağlı problemlərin həllinə dəstək verilməsi və s. kimi qeyri-maliyyə istiqamətində

yardımlar da olunur. Maliyyə istiqamətlərindən fərqli olaraq qeyri-maliyyə istiqamətləri müvəqqəti yox, müntəzəm və daimi xarakterlidir. Hər iki istiqamətlərin ortaq cəhəti isə, onların əsasən rəqabət şəraitində fəliyyətlərinin ilkin mərhələlərində davamlılıqlarını qorumaq üçün dövlət dəstəyinə ehtiyac duyan kiçik sahibkarlığa yönəldilməsidir. Nəticədə sahibkarlığın kiçik, orta və iri sahibkarlığına bərabər fəaliyyət şəraiti təmin edilmiş olur. Müəssisə bazarda mövqeyini möhkəmləndirdikdə, artıq maliyyə deyil, qeyri-maliyyə dəstəkləri ön plana keçir.

İstehsal sahələrində (əsasən də idxalı əvəz edə bilən) fəaliyyət göstərən sahibkarların işgüzar fəaliyyətinin stimullaşdırılması, qorunması və yönləndirilməsi ölkədə iqtisadiyyatın inkişafı nöqteyi-nəzərindən dövlət tənzimlənməsinin əsas öncül istimaqətlərindən birinə çevrilməlidir. Belə halda bu proses iki istiqamətdə reallaşdırılmalıdır. İlk öncə ölkənin sahibkarları və daxili bazarı xarici rəqabətdən qorunmalı, bunun üçünsə dövlət himayədarlıq siyasəti aparmalıdır. Əgər ölkə daxilində müvafiq məhsulun istehsalı varsa və ya istehsalı mümkündürsə, belə xarakterli məhsullara xaricdən idxal zamanı yüksək gömrük rüsumları müəyyənləşdirilməlidir. İdxalı əvəz edən məhsul istehsalçılarına isə vergi və kredit güzəştləri tətbiq edilməli, istehsal xərcləri minimuma salınmalı, vacib xammal və materiallarla təmin edilməli, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına hərtərəfli şərait yaradılmalıdır. Bundan əlavə ölkə daxilindəki sahibkarların ixracla bağlı potensialları möhkəmləndirilərək, onlar tərəfindən istehsal olunan məhsulların dünya bazarına çıxarılaraq rəqabətqabiliyyətliliyinin artırılması bu sahibkarların iqtisadi fəaliyyətinin dövlət tərəfindən tənzimlənmə siyasətinin digər istiqamətlərindən olmalıdır ki, bu da bir sıra iqtisadi üsullarla gerçəkləşə bilər. Məsələn, dünya bazarında rəqabətqabiliyyətli məhsullara ixrac rüsumlarının endirilməsi və buyönümlü məhsullara subsidiyaların verilməsi, ixrac prosedurları ilə bağlı bəzi müəyyən xərclərin dövlət tərəfindən geri qaytarılması, həmin müəssisələrə vergi və kredit güzəştlərinin tətbiq edilməsi, ölkəxarici fəaliyyətindən əldə etdiyi mənfəətlərə güzəştli vergilərin tətbiqi, belə məshulların beynəlxalq sərgilərdə iştirakına imkanın yaradılması, tərəf müqabillərinin (beynəlxalq) tapılmasında köməklik edilməsi və s.

Prezident İlham Əliyev tərəfindən imzalanan fərman və sərəncamlar sahibkarlara dövlət tərəfindən dəstəyin bariz nümunəsidir. Buna misal olaraq, prezidentin fərmanı ilə təsdiq olunmuş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" AR qanununu xüsusi qeyd etmək olar. Bu qanunda sahibkarlıq fəaliyyəti sahəsində aparılan və aparılması nəzərdə tutulmuş yoxlamaların məqsəd və prinsipləri, təşkil olunması və aparılması formaları, sahibkarların maraqlarının müdafiəsi ilə əlaqəli nüanslar qeyd olunmuşdur. Burada əsas hədəf sahibkarlıq sahəsində aparılan yoxlamaların yekdil qaydalarının müəyyənləşdirilməsi və yoxlamaların təşkil olunub aparılması zamanı sahibkarlıq fəaliyyətinə qanundan kənar müdaxilələrin qarşısını almaqdır.

Qanunda qeyd olunur ki, müəyyən olunmuş tələblər əsasında aparılmayan, həmçinin də vahid məlumat reyestrində qeydə alınmayaraq həyata keçirilən nəzarətin heç bir hüquqi əsası yoxdur. Yəni, əvvəlcədən məlumat reyestrində qeydiyyatdan keçməklə qanunla nəzərdə tutulan hallarda və qaydada yoxlamalar aparıla bilər, əks halda aparılan yoxlamalar əsassız hesab olunur.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunda yoxlamaların məqsəd və prinsiplərini açıq şəkildə görmək olur. Belə ki, yoxlamaların məqsədi sahibkarlığa aid məcburi tələbləri rəhbər tutaraq, habelə bu sahədə yoxlayıcı orqan və ya orqanlar tərəfindən sahibkarlara kömək göstərilməsilə insanların maddi rifah, həyat və ya sağlamlığının, ətraf mühitin və dövlətin əmlak maraqlarının təhlükəsizliyinin təmin olunmasıdır. Qanunun müddəalarında qanun pozuntularına cəhd edilərsə bunun qarşısını almağın cəzalandırmadan üstün hesab olunduğu, yoxlamanın qabaqlayıcı, həmçinin profilaktik məqsəd daşıdığı, yoxlama aparılmışdırsa bu yoxlamanın fərqli orqan tərəfindən təkrar aparılmaması kimi məsələlər qeyd olunmuşdur.

Qanunda yenilik olaraq sahibkarlıq fəaliyyətinin risk qrupları əsasında bölgüsü də öz əksini tapmışdır. Bunun əsasında da plan üzrə yoxlamaların dövriliyi müəyyənləşdirilir. Bu risk qrupları belə bölünmüşdür:

- ✓ Yüksək risk qrupları;
- ✓ Orta risk qrupları;

- ✓ Aşağı risk qrupları.

Sahibkarların göstərilən risk qruplarına bölgüsü bütün yoxlayıcı orqan tərəfindən onun nəzarət sahəsinə uyğun olaraq yalnız Qanunda qeyd olunan faktorları nəzərə alınaraq aparılır. Eləcə də yeyinti məhsullarının təhlükəsizliyinə nəzarət olunması sahəsində plan üzrə yoxlamaların dövriliyi başqa yoxlamalarla müqayisədə daha intensiv, mütəmadi xarakter daşıyır. Risk qrupları üzrə bölgüyə əsaslanan bu yanaşma yoxlamaların azalmasına, yoxlamaya məruz qalan sahibkarların seçilməsində sistemliliyin təmin olunmasına gətirib çıxarmaqla yanaşı, həmçinin yoxlayıcı orqanların zaman, insan və maliyyə resurslarından səmərəli istifadəsinə, diqqətin daha çox yüksək riskli müəssisələrə yönəldilməsini labüd edəcəkdir.

Yoxlama prosesində şəffaflığın artırılmasında və təmin olunmasında xüsusi rol oynayan digər bir metod isə əvvəlcədən yoxlamaların hər bir qurum tərəfindən hazırlanmış yoxlama sualları əsasında həyata keçirilməsidir. Belə ki, siyahı şəklində tərtib olunmuş yoxlama sualları yoxlama aktının tərkib hissəsi olmaqla, həmin suallar hər bir yoxlayıcı orqan tərəfindən ancaq və ancaq öz nəzarət sahəsi dairəsinə uyğun olaraq hazırlanır. Həmin siyahı yoxlayıcı orqana məxsus olan rəsmi internet saytında yerləşdirilir. Bununla da artıq sahibkarların saytda siyahı şəklində tərtib olunmuş yoxlama sualları ilə əvvəlcədən tanış olmaq imkanı təmin olunmuş olur.

Bu sualların əhəmiyyətinin nədən ibarət olması barədə sual yarana bilər. Əvvəlcədən suallarla tanış olduğundan yoxlama zamanı yalnız siyahıya daxil olunmuş məcburi tələblərin icra vəziyyəti yoxlanılır. Həmin siyahıya daxil edilməmiş tələblərin pozulması faktı aşkarlandıqda bu fakt üzrə məsuliyyət tədbiri birmənalı olaraq tətbiq oluna bilməz. Bu halda sahibkarın özünü qanun çərçivəsində tam şəkildə müdafiə etmək hüququ var.

Qanunda yoxlamaların plan üzrə və plandankənar formaları da nəzərdə tutulur. Vurğulamaq lazımdır ki, plandankənar yoxlamaların əsasları konkretləşdirilmişdir və bu da yoxlamaların sayının azaldılmasına gətirib çıxarır. Plan üzrə və plandankənar yoxlamaların müddətinin iri, orta, kiçik sahibkarlıq üzrə

konkretləşdirilməsi sahibkarların yoxlamalara sərf olunan zamanlarını minimuma endirmək məqsədini daşıyır.

Sahibkarların maraqlarının müdafiəsi sahəsində digər mühüm məqam məhdudlaşdırıcı tədbirlərin tətbiq olunması ilə əlaqədardır. Yalnız qanunda qeyd olunan aşağıda göstərilən üç əsas bəndin mövcud olması məqamında sahibkarlıq fəaliyyətini məhdudlaşdıran tədbirlərin tətbiq olunması haqqında qərar qəbul oluna bilər:

1. Yoxlama əsnasında üzə çıxan qanun pozuntusu insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlakla bağlı maraqlarına birbaşa təhlükə yaradırsa və ya mühüm zərər vurursa;
2. Həmin qanun pozuntusunun dərhal qaydaya salınaraq həll edilməsi mümkün deyildirsə;
3. Məhdudlaşdırıcı tədbirlərin mümkünlüyü yoxlayıcı orqanın nəzarət sahəsi üzrə qanunla nəzərdə tutulursa.

Yəni qeyd olunan şərtlərdən biri olmadığı təqdirdə bu barədə qərar qəbul olunması yol verilməzdir. Adı çəkilən qanunda istisnasız şəkildə bütün yoxlamalar üzrə yalnız reyestrdə qeydiyyata alındıqdan sonra həyata keçirilməsinin mümkün olacağı vacib şərt kimi göstərilmişdir. Bu deyilənlərlə bir arada reyestrdə yoxlayıcı orqan tərəfindən sahibkarın hansı risk qrupuna aid edilməsi haqqında məlumat, saytda yer almış yoxlama suallarının siyahısı, yoxlamanın dayandırılması və əldə olunan nəticələri üzrə qərar, həmçinin də bəzi hallarla qarşılaşdıqda sahibkarın fəaliyyətinə tətbiq edilən məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə yoxlayıcı orqanın verdiyi qərarla bağlı məlumatlar da daxil olunmalıdır. Beləliklə hər bir sahibkarlıq fəaliyyəti subyektinin özü ilə əlaqədar olan aparılmış yoxlamalar, həmçinin də hansı risk qrupuna daxil edilməsi ilə bağlı məlumatları əldə etmək imkanı yaranır. Reyestr göstərilən sahədə yoxlamaların statistikasının aparılması, sahibkarların şikayət və narazılıqları ilə əlaqədar olaraq məlumatların əldə edilməsi yolunda ən mühüm mənbədir.

Beləliklə, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" AR qanunu sahibkarlığın daha da

inkişaf etdirilməsində, qanunvericilik tələblərinin və şəffaflığın təmin olunmasında, istehlakçıların hüquq və mənafelərinin qorunmasında və korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə tədbirlərinin gücləndirilməsində əvəzsiz rol oynayacaqdır.

Öz fəaliyyət prinsiplərini qanun çərçivəsində quran və həyata keçirən sahibkarın hüquq və qanuni mənafelərinin müdafiəsi mülkiyyət və təşkilati-hüquqi formalarından asılı olmayaraq dövlət tərəfindən təmin olunur. Anoloji olaraq xaricdə sahibkarlıq fəaliyyətilə məşğul olan AR fiziki və hüquqi şəxslərinin də bu sahədə hüquq və qanuni mənafelərinin müdafiəsinə dövlət tərəfindən təminat verilir. Sahibkarlıq fəaliyyətinin yoxlanılmasını aparan orqanların müəyyənləşdirilmiş hüquq və səlahiyyətləri qanunvericilik aktlarına əsaslanır. Sahibkarın hüquq və qanuni mənafelərini pozan dövlət orqanlarının, eləcə də digər orqanların, yaxud həmin orqanların vəzifəli şəxslərinin fəaliyyəti nəticəsində, həmçinin sahibkar haqqında qanunvericilikdə əksini tapmış hüquq və vəzifələrin onlar tərəfindən qanun çərçivəsində yerinə yetirilməməsi səbəbindən və nəticədə sahibkara dəyən zərərin, o cümlədən əldən çıxmış faydanın əvəzini mülki qanunvericilikdə göstərilmiş qaydada qarşılığını ödəməlidirlər. Bütün yuxarıda qeyd edilənləri ümumiləşdirsək qısaca şəkildə aşağıdakı nəticələrə gəlmək olar:

- sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiə olunması birbaşa dövlətin nəzarətindədir;
- dövlət sahibkarların, həmçinin də sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin mənafelərinin müdafiə olunması ilə bağlı bütün təminatları qanunvericilik müstəvisində birbaşa təsbit etmişdir;
- hazırki dövrdə sahibkarhq hüququ müstəqil hüquq sahəsi kimi formalaşmış və digər hüquq sahələri ilə qarşılıqlı surətdə fəaliyyət göstərmək imkanına malikdir;
- sahibkarlıq fəaliyyəti sahəsi üzrə qanunvericilik aktları kifayət qədər çoxdur, ancaq buna baxmayaraq hələ də sistemləşdirilməmişdir;
- eyni zamanda sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq va qanuni maraqlarının müdafiəsi ila əlaqədar hesab edirik ki, sahibkarlıq

fəaliyyəti sahəsində qanunvericiliyin məcəlləşdirilməsi məqsədəuyğun olardı;

- müasir şəraitdə sahibkarlığın öz sosial funksiyasını və təyinatını yerinə yetirməsi üçün onun rolu və əhəmiyyəti həm cəmiyyət, həm də dövlət tərəfindən dərk edilməlidir;
- sahibkarlıq fəaliyyəti subyektlərinin təhlükəsizliyini təmin etmək üçün hüquq mühafizə orqanlarının hüquq qaydasının möhkəmləndirilməsinin müxtəlif növləri ilə məşğul olan qeyri- dövlət strukturları ilə koordinasiya şəklində fəaliyyət göstərməsi zəruridir;
- hüquqi səviyyədə nəinki informasiya mübadiləsi, həm də birgə texniki mühafizə sistemlərinin yaradılması, texniki müdafiə üzrə milli standartların, kadrların hazırlığı və yenidən hazırlığı ilə əlaqədar birgə tədris proqramlarının hazırlanması və həyata keçirilməsi məsələlərinin yenidən işlənib hazırlanması zəruridir.

# FƏSİL 3.ОШИБКА! ЗАКЛАДКА НЕ ОПРЕДЕЛЕНА.SAHİBKARLIQ FƏALİYYƏTİ SUBYEKTLƏRİNİN HÜQUQ VƏ QANUNİ MƏNAFELƏRİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏTİN NƏZƏRİ, TƏCRÜBİ PROBLEMLƏRİ VƏ HƏLL İSTİQAMƏTLƏRİ

## 3.1.Sahibkarlıq fəaliyyəti subyektlərinin əmlak və qeyri-əmlak hüquqlarının pozulmasına görə məsuliyyətin nəzəri, təcrübi problemlərinə müvafiq təkliflər

İkinci fəsildə sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiə üsullarını kompleks təhlil etmişdik. Əmlak hüquqlarının müdafiə üsullarından danışarkən vindikasiya iddiasından və fiktiv sahibkarlıqdan bəhs etdik. Dedik ki, fiktiv sahibkar tələb olunan əşyanın sahibi deyil, amma özünü həmin əşyanın sahibi kimi təqdim edir (məqsəd əşyanın yerini gizlətməkdir), və ya mübahisəli əşyanı yaxud əmlakı məhkəmənin qərarına qədər özgəninkiləşdirir. Əgər iddiaçı tərəfindən həmin mübahisəli əmlakın və ya əşyanın fiktiv sahibkar tərəfindən məhv edildiyi sübut olunsa, onda əsl sahibkarın iddiası hüquq pozuntusu törədən fiktiv sahibkar tərəfindən vurulan zərərin əvəzinin ödənilməsi iddiası ilə əvəz edilir. Lakin məhkəmə təcrübəsində bu şəkildə iddialar əsasən təmin edilməmiş olur. Belə ki iddia fiktiv sahibkara deyil, fiktiv sahibkarın mübahisəli əşyanı məhkəmə qərarı çıxana qədər özgəninkiləşdirdiyi şəxsə ünvanlanır. Amma hesab edirəm bu cür mövqe tutarsızdır. Əvvəla onu vurğulayaq ki, əmlaka sərəncam vermək hüququ olmayan şəxs tərəfindən həmin əmlakın özgəninkiləşdirilməsi zamanı əqd etibarsız hesab olunmalıdır. Əlbəttə, burada bir nüans var ki, ona diqqət yetirmək lazımdır: əgər yeni mülkiyyətçi həmin əşyanı qanunsuz sahibkardan aldığını bilirdisə və ya bilməli idisə, onda həmin əqd məhkəmə tərəfindən etibarsız hesab oluna bilər.

Azərbaycan Respublikasının iqtisad məhkəmələrinin təcrübəsində də belə hallara rast gəlmək olur:

Azərbaycan Respulikasının 1 saylı Yerli İqtisad Məhkəməsinə Azərbaycan Respulikasının Dövlət Əmlakının İdarəedilməsi üzrə Dövlət Komitəsi "RTZ" MMC-ni qeyri-yaşayış sahəsindən çıxarılması ilə bağlı iddia irəli sürərək məhkəməyə müraciət etmişdir. İşə Bakı Şəhər icra Hakimiyyəti üçüncü şəxs

qismində cəlb olunmuşdur. Azərbaycan Respulikasının 1 saylı Yerli İqtisad Məhkəməsi özünün 21 noyabr 2006-cı il tarixli qətnaməsi ilə həmin iddianı təmin etmişdir. Qətnamədə əsaslandırılaraq qeyd olunur ki, "RTZ" MMC-in yerləşdiyi qeyri-yaşayış sahəsi dövlət mülkiyyətindədir və bu fakt dövlət qeydiyyatı haqqında şəhadətnamə ilə təsdiq olunur. Dövlət qeydiyyatı rəsmi qeydiyyata alınmış daşınmaz əmlakın məhkəmə mübahisələndirilməsi üçün yeganə sübut növü kimi çıxış edir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 157-ci maddəsinə görə mülkiyyətçi özgəsinin qaydasında sahibliyindən öz əmlakını geri tələb edə bilər. Bu normanı əsas götürərək məhkəmə haqlı olaraq Azərbaycan Respulikasının Dövlət Əmlakının qanunsuz İdarəedilməsi üzrə Dövlət Komitəsinin iddiasını təmin etmişdir. (Azərbaycan Respublikası 1 saylı Yerli İqtisad Məhkəməsinin arxivi, iş №2774/1-216/2008)

Sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş zərərin ödənilməsindən danışarkən real zərər və əldən çıxmış faydanı qeyd etdik. Belə ki, Mülki Məcəllənin 443-cü maddəsinə əsasən "əldən çıxmış fayda müəyyənləşdirilərkən kreditorun onu əldə etmək üçün gördüyü tədbirlər və bu məqsədlə apardığı hazırlıq işləri nəzərə alınır." (Mülki Məcəllə) Real zərərin anlayışı isə MM-nin 21-ci maddəsində təsbit edilmiş ümumi zərər verilən anlayışla üst-üstə düşür. Mübahisə məhkəmədə həll edilən zaman, məhkəmənin işini yüngülləşdirmək və eyni zamanda tərəflər arasında yaranmış mübahisənin tez və ədalətli formada həlli məqsədilə zərərin göstərilən iki növünün müqayisəsini aparmaq böyük praktiki əhəmiyyət daşıyır. Bunun bir neçə səbəbi var. Birincisi, kreditorun gördüyü tədbirlər va apardığı hazırlıq işləri demək olar ki, məzmunca bir-birindən elə də ciddi fərqlənməyən anlayışlardır. İkincisi MM-nin 443-cü maddəsində nəzərdə tutulan tərif həmin Məcəllənin 21-ci maddəsində əldən çıxmış faydaya verilən universal tərifi fikrimizcə, əsassız məhdudlaşdırır. Çünki öhdəlik hüquq münasibətinin tərəflərinin hansısa faydanı götürməyi planlaşdırması olduqca təbii haldır. Bu faydanı borclunun (öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsi səbəbindən) əldə etməməsi kreditora hüquq verir ki, real zərərlə yanaşı əldən çıxmış fayda əldə etmək üçün hər hansı tədbirin görülməsi va ya hazırlıq işlərinin aparılması vacib deyil. Üçüncüsü, MM-nin 443-cü maddəsi "tədbir va hazırlıq işləri aparılmadan əldən çıxmış faydanın ödənilməsi"

imkanını istisna edir. Bu cür müddəanın MM-də saxlanılması əldən çıxmış fayda ilə bağlı kreditorun hüquqlarını məhdudlaşdırır. Ona görə də təklif olunur ki, həmin maddə aşağıdakı kimi redaktə olunsun: "əldən çıxmış fayda müəyyənləşdirilərkən kreditorun hüquq pozulana qədər əldə edə biləcəyi real gəlirlər müəyyən edilməlidir". Qeyd edilməlidir ki, istər real zərər, istərsə də əldən çıxmış fayda abstrakt anlayışlar deyil. Hər bir halda həm real zərər, həm də əldən çıxmış fayda konkret sübutlarla təsdiq edilməlidir. Real zərər pozulmuş hüququn bərpa olunması, itirilmiş yaxud zədələnmiş əmlakın əvəz olunması, yaxud təmiri üçün çəkilən xərclərdirsə, əldən çıxmış fayda da öhdəliyin lazımınca icra ediləcəyi təqdirdə qazanılan əmlak və ya pul vəsaitidir. Ona görə də fikrimizcə, heç bir konkret sübut, sənəd, xərclərlə təsdiq edilməyən zərər tələbi, təbii ki, məhkəmə vasitəsilə ödənilə bilməz.

Zərərin əvəzinin ödənilməsi tələbindən başqa hüququ pozulmuş şəxs məhkəmə vasitəsilə həmin hüquq pozuntusunun baş verdiyini sübut etməlidir. Amma təklif edirəm ki, hüquq pozuntusunun baş verdiyi halları sübut etməklə bərabər əmlak və ya qeyri əmlak hüquqlarının pozulması ilə həmin qanunsuz hərəkətlər arasında əsaslı əlaqənin olması da sübut olunsun. Məhz belə olan halda delikventin (hüquq pozuntusuna yol vermiş şəxs) zərəri ödəmək vəzifəsindən söhbət gedə bilər.

Müasir dövrdə sahibkarlıq fəaliyyəti subyektlərinin qeyri-əmlak hüquqlarının müdafiəsi zamanı fərdi sahibkarlara nisbətən hüquqi şəxslərin qeyri-əmlak hüquqlarının müdafiəsi müəyyən qədər məhdudlaşdırılır. Belə ki, hüquqi şəxslərlə müqayisədə fərdi sahibkarlar sahibkarlıq fəaliyyətinin subyektləri kimi aşağıdakı hüquqlara malik olurlar:

- şərəf, ləyaqət və işgüzar nüfuzun müdafiəsi hüququna;
- yalan və böhtan xarakterli məlumatların yayıldığı hallarda belə məlumatların təkzib edilməsini tələb etmək hüququna;
- yalan və böhtan xarakterli məlumatların yayıldığı hallarda cavab vermək hüququna;

- yalan və böhtan xarakterli məlumatların yayılması nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsi və mənəvi zərərin kompensasiyası hüququna.

Göründüyü kimi, fərdi sahibkarlar hüquqi şəxslərdən fərqli olaraq qanunvericiliklə şərəf, ləyaqət və işgüzar nüfuzun müdafiəsi ilə bağlı bütün üsullardan istifadə etmək hüququna malikdirlər. Bu baxımdan hesab edirik ki, mülki qanunvericilikdə işgüzar nüfuza malik olan hüquqi şəxslərə vurulmuş qeyri-əmlak zərərinin kompensasiyası ilə bağlı xüsusi müdafiə üsulları təsbit edilməlidir. Belə ki, hüquqi şəxslərin qeyri-əmlak hüquqlarının pozulması halları mümkün olduğu üçün onların pozulmuş hüquqların kompensasiyası kimi (fərdi sahibkarlara vurulan mənəvi zərərin kompensasiyasına oxşar olan) müdafiəsi tədbirinin olması da zəruridir. Bu baxımdan mənəvi zərərin kompensasiyası institutu daha geniş mənada başa düşülməli və qanunvericilikdə zəruri dəyişikliklər edilməklə belə institutun həm də hüquqi şəxslərə tətbiq edilməsi nəzərdə tutulmalıdır. Ümumiyyətlə, hesab edirik ki, hüquqi şəxslər fərdi sahibkarlara vurulan mənəvi zərərin kompensasiyasına uyğun olan üsullarla öz qeyri-əmlak hüquqlarının müdafiəsi imkanına malik olmalıdırlar. Lakin bu zaman sahibkarlıq fəaliyyəti subyektlərinin xüsusiyyətləri nəzərə alınmalıdır.

Vurulmuş mənəvi zərərin ödənilməsi ilə bağlı iddianın təmin edilməsi tədbirlərindən biri kimi cavabdehə məxsus olan əmlakın üzərinə həbs qoyulması çıxış edir. Məhkəmə praktikasında belə sual yaranır ki, mənəvi zərərin ödənilməsi haqqında iddia əmlak üzərinə həbsin qoyulması yolu ilə təmin edilə bilərmi? Sahibkarlıq fəaliyyəti subyektlərinin şərəf, ləyaqət və işgüzar nüfuzunun müdiəsi üçün bu suala cavab mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, mənəvi zərər qeyri-əmlak zərəridir. Şərəf və ləyaqət isə qeyri-maddi (qeyri-əmlak) nemətlərdir. Mənəvi zərər ziyan (itki) kimi hesablanıb ödənilmir, o, kompensasiya edilir. Qeyri-əmlak iddialarının qiyməti yoxdur, çünki fiziki və mənəvi iztirablar dəyərə malik ola bilməzlər. Məhkəmə tərəfindən mənəvi zərərin kompensasiyası iddiası üzrə kütləvi informasiya vasitələrinin əmlakının üzərinə həbs qoyulması onların fəaliyyətini faktiki olaraq iflic vəziyyətinə sala bilər. Lakin formal baxımdan mülki prosessual

qanunvericilik (AR MPM 158-ci maddə) mənəvi zərərin kompensasiyası ilə bağlı iddiaların əmlak həbsi ilə təmin edilməsini qadağan etmədiyindən mənəvi zərərin kompensasiyasının belə tədbirlə təmin edilməsinin yolverilməzliyi haqqında fikirlərin qanuni əsası yoxdur. Hesab edirəm ki, belə halda məhkəmə iddiaçının öz hüququndan sui-istifadə etməsinə yol verməməli, iddianın rədd edilməsinin MPM-in 164-cü maddəsində nəzərdə tutulmuş bütün mümkün nəticələrini ona izah etməlidir (iddianın rədd edilməsi haqqında qətnamə qanuni qüvəyə mindikdən sonra cavabdeh iddianın təmin edilməsi ilə əlaqədar məhkəmə tərəfindən tədbirlərin görülməsi nəticəsində vurulmuş zərəri iddiaçıdan tələb etməyə haqlıdır). Beləliklə, sahibkarlıq fəaliyyəti subyektlərinə vurulan mənəvi zərərin kompensasiyası institutunun müəyyən nəzəri və praktiki (qanunvericilik səviyyəsində) dəyişikliklərə ehtiyacı vardır. Çünki məhz o, qüvvədə olan qanunvericilik baxımından sahibkarlıq fəaliyyəti subyektlərinin şərəf, ləyaqət və işgüzar nüfuzunun mülki-hüquqi müdafiəsinin ən səmərəli üsullarından biri kimi çıxış edə bilər.

AR qanunvericiliyi baxımından faktiki olaraq sahibkarlıq fəaliyyəti subyektlərinə şamil olunan işgüzar nüfuz anlayışı ilə əlaqədar vahid fikir formalaşmamışdır. Bu anlayışla bağlı yaranan mübahisələrin qanunvericilik səviyyəsində həll edilməsi münasib olardı. AR MM-də nüfuz və işgüzar nüfuz anlayışlarına aşağıdakı kimi leqal anlayışın verilməsi daha məqsədəuyğun olar:

- Nüfuz-şəxsin işgüzar, peşəkar və xidməti keyfiyyətləri barəsində başqalarında formalaşan rəydir;
- İşgüzar nüfuz-sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyəti ilə əlaqədar əməkdaşlıq etdiyi şəxslərdə onların işgüzar (sahibkarlıq) keyfiyyətləri haqqında formalaşan rəydir.

İşgüzar nüfuz anlayışı ancaq sahibkarlıq fəaliyyəti subyektlərinə aid edilsə daha məqsədəuyğun olar. Nüfuz anlayışı isə sahibkarlıq subyektləri ilə yanaşı, həm də peşəkar və ya xidməti fəaliyyət göstərən digər subyektlərə də aid edilməlidir.

Hüquq ədəbiyyatında mənəvi zərərin kompensasiyası institutunun daha geniş mənada başa düşülməsi və qanunvericilikdə zəruri dəyişikliklər edilməklə belə institutun həm də hüquqi şəxslərə tətbiq edilməsi təklif edilir. (Малеина М.Н, 2005: s.

103) Bəzi müəlliflərin fikrincə, hüquqi şəxslərin işgüzar nüfuzunun müdafiəsi aşağıdakı redaksiyada təsbit edilməlidir: Hüquqi şəxslərin işgüzar nüfuzunu, təmiz adını ləkələyən məlumatların yayılması yolu ilə və ya hüquqi şəxslərin işgüzar nüfuzunu sarsıdan digər üsullarla onların qeyri əmlak hüquqlarının və maraqlarının pozulması ilə bağlı vurulan zərər vətəndaşa vurulan mənəvi zərərin ödənilməsi şərtlərinə uyğun olaraq kompensasiya edilməlidir. (Голубев К.П,1999: s. 24) İ.N. Polyakov göstərir ki, "yalan, dəqiq olmayan, böhtanlı məlumatlar hüquqi şəxsə ciddi zərər vura bilər. Hüquqi şəxs bu səbəbdən əmlak bazarında rəqabətlə bağlı problemlərlə üzləşə, sərfəli müqavilələrdən məhrum ola, malların satılmasında çətinliklərlə qarşılaşa bilər. Ona görə də hüquqi şəxsləri mənəvi zərərin kompensasiyası hüququndan məhrum etmək düzgün və ədalətli olmazdı." (Поляков И.Н, 1998: s. 25) Lakin hesab edirəm ki, hüquqi şəxslərə vurulan qeyri-əmlak zərərinin kompensasiyasının xüsusiyyətləri baxımından (onlardan başlıcası ondan ibarətdir ki, həqiqətə uyğun gəlməyən, hüquqi şəxsin işgüzar nüfuzunu ləkələyən məlumatların yayılması psixoloji (mənəvi və ya fiziki iztirablar) deyil, üçüncü şəxslərdə hüquqi şəxsin keyfiyyətləri və məhsulları barədə mənfi rəy yaratmaqla obyektiv məzmun kəsb edir) vətəndaşlara vurulan mənəvi zərərin kompensasiyası institutunun hüquqi şəxslərə tətbiq edilməsi son dərəcə çətin məsələdir.

Problemin həlli ilə bağlı digər daha məntiqli yanaşma mövcuddur: hüquqi şəxslərə vurulmuş qeyri-əmlak zərərinin kompensasiyası ilə əlaqədar hüquqi şəxslərin qeyri-əmlak hüquqlarının müdafiəsi üzrə xüsusi institutların müəyyən edilməsi. Bunun üçün yeni anlayışdan istifadə edilə bilər: "hüquqi şəxslərin işgüzar nüfuzuna vurulan zərər". Bu isə mənəvi zərər kimi qeyri-əmlak zərərinin hallarından (formalarından) biri kimi çıxış edə, habelə belə zərərin vurulmasına görə pul kompensasiyası nəzərdə tutula bilər.

AR qanunvericiliyinə müvafiq qaydada sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni maraqlarının müdafiəsi nöqteyi nəzərindən qeyri-əmlak nemətləri və qeyri-əmlak hüquqları anlayışının konkretləşdirilməsi məqsədəuyğun olardı. Hesab edirəm ki, bu anlayışlar bir-biri ilə sıx şəkildə bağlı olsalar da, onları eyniləşdirmək olmaz. Belə ki, qeyri-əmlak nemətləri obyekt kimi, qeyri-əmlak

hüquqları isə həmin obyektlə bağlı yaranan hüquq kimi çıxış edir. Eyni zamanda sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni maraqlarına münasibətdə "qeyri-əmlak" terminindən geniş şəkildə istifadə edilməsi daha məqsədə münasibdir. Çünki, "qeyri-əmlak" termini mülki dövriyyədə sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin mahiyyətini daha dəqiq şəkildə əks etdirir.

İnformasiya texnologiyalarının yüksək səviyyədə inkişafı ilə əlaqədar həqiqətə uyğun olmayan və şərəf, ləyaqət və işgüzar nüfuzu ləkələyən məlumatlar ümumdünya komputer şəbəkəsi (internet) vasitəsi ilə yayılan zaman müasir məhkəmə praktikası sahibkarlıq fəaliyyəti subyektlərinin qeyri-əmlak hüquqlarmın müdafiəsi sahəsində qüvvədə olan qanunvericiliyin tətbiqi ilə bağlı bir sıra problemlərlə qarşılaşa bilər. Müasir qanunvericilik internetdən istifadə ilə bağlı yarana biləcək münasibətləri bilavasitə tənzim etmir. Amma kütləvi informasiya vasitələri haqqında qanunda internet kütləvi informasiya vasitəsinə aid edilmişdir. Buna görə də həm hüququn analogiyasından və mülki hüququn ümumi prinsiplərindən istifadə edilməsi, həm də bu sahədə formalaşmış adətlərin nəzərə alınması zəruridir. Lakin hər bir halda böhtan xarakterli məlumatların internetdə yayılması faktının özü əhəmiyyət kəsb edir. Bununla bağlı internet nəşrlərinin kütləvi informasiyaya aid olub olmaması, onlara KİV haqqında qanunvericiliyin normalarının tətbiq edilib edilməməsi kimi suallar yarana bilər. Hesab edirik ki, həqiqətə uyğun olmayan böhtan xarakterli məlumatlar internet şəbəkəsi vasitəsi ilə qanunla müəyyən olunmuş qaydada kütləvi informasiya vasitəsi kimi qeydiyyatdan keçmiş informasiya resurslarına (vasitələrinə) yayıldığı zaman şərəf, ləyaqət və işgüzar nüfuzun müdafiəsi ilə bağlı iddiaya baxılarkən kütləvi informasiya vasitələrinə aid olan normalar rəhbər tutulmalıdır. KİV-lərə yalnız qanunla müəyyən olunmuş qaydada kütləvi informasiya vasitəsi kimi qeydiyyatdan keçmiş informasiya resursları deyil, prinsipial olaraq informasiyanın yayılması mümkün olan bütün internet saytları aid edilməlidir. Məlumdur ki, texniki xüsusiyyətlərinə (informasiyanın uzun müddət saxlanması, həmin informasiyanın qeyri-məhdud şəxslər dairəsi üçün açıq olması və s.) internet resursları ənənəvi KİV-lərdən (qəzet,

jurnal, televiziya və radio proqramları və s.) fərqlənir. Lakin internet saytları ilə ənənəvi kütləvi informasiya vasitələri arasında texniki fərqlərin olmasına baxmayaraq, mövcud texniki fərqlər deyil, saytın məqsədini təşkil edən məzmun elementi əsas götürülməlidirmi, bunu aydınlaşdıraq. İnternet nəşrləri öz məzmununa görə kütləvi informasiya vasitəsidir. Ona görə də onlara sahibkarlıq fəaliyyəti subyektlərinin şərəf, ləyaqət və işgüzar nüfuzunun müdafiəsi ilə əlaqədar kütləvi informasiya vasitələri haqqında qanunvericiliyin normaları tətbiq edilə bilər.

İstənilən halda nəzərə almaq lazımdır ki, qanun (MM-nin 23-cü maddəsi) qeydiyyatdan keçmiş kütləvi informasiya vasitələrində hüquqi şəxslərin işgüzar nüfuzunu ləkələyən məlumatların yayılmasına görə məsuliyyətə cəlb edilə biləcək subyektlərin dairəsini məhdudlaşdırmır. Böhtan xarakterli və həqiqətə uyğun gəlməyən məlumatlar internetdə yayılan zaman ümumdünya şəbəkəsinin spesifikliyi nəzərə alınmaqla, belə məlumatların yayılmasının anonimliyi (bu halda internet istifadəçilərinin anonimliyi) prezumpsiyası və buna müvafiq olaraq internet saytının rəsmi rəhbərinin təqsirliliyi prezumpsiyası fəaliyyət göstərməlidir. Bu halda böhtan xarakterli məlumatların təkzib edilməsi haqqında iddia üzrə cavabdeh qismində həmin məlumatların yayıldığı bu və ya digər internet saytının rəsmi rəhbəri cəlb edilməlidir.

### 3.2.Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi kontekstində mübahisələrin alternativ həll istiqamətləri

Sahibkarlıq subyektləri fəaliyyət göstərdikləri müddətdə fərqli subyektlərlə qarşılıqlı münasibətlər zamanı yaranan mübahisəli, həmçinin münaqişəli hallarla üzləşirlər. Bu cür hallarla qarşılaşma zamanı yaranan fikir müxtəlifliyi və dərinləşən mübahisələri yoluna qoymaq üçün bir çox hallarda sahibkarlar məhkəmələrə müraciət üsulunu seçmək məcburiyyətində qalırlar.

Bu cür halların çox olduğu üçün təcrübələr göstərmişdir ki, mübahisələrin məhkəmə yolu ilə həlli onu deməyə əsas vermir ki, hər zaman tərəflərin maraqlarına cavab verir. Yəni, mübahisənin məhkəmə yolu ilə həlli bütün tərəflər arasında

barışığın əldə edilməsinə yönəlmir, əksinə, tərəflər ən yaxşı halda işgüzar münsibətlərinə xitam verirlər. Bundan başqa mübahisənin həll yolu məhkəmə seçildikdə onun qısa zamanda həlli hər zaman mümkün olmur. Çünki qanunvericilik əsasında mübahisələrin həlli üçün müəyyən edilən prosessual zaman bu mübahisələrin həllini xeyli uzadır. Həmçinin müdafiə prosesində tərəflərin mübahisəni öz xeyrinə həll etməsi məqsədilə ixtisaslaşmış hüquqşünasların cəlb olunması onlara böyük məsrəflər yaradır. Bu isə əsasən xüsusilə bir çox hallarda tərkibində fərdi şəkildə hüquq departamentləri fəaliyyət göstərməyən kiçik və orta sahibkarlıq subyektləri üçün xarakterizə olunur.

Bir sıra xarici ölkələrdə mübahisəli və münaqişəli məsələlərin uğurlu həlli məqsədilə mübahisələrin həllinin oxşar üsullarından istifadə olunur. Mübahisələr məhkəmə prosesi ilə həll olunduğu zaman tərəflər qaydaya uyğun olaraq olaraq, qərar qəbul edilərkən dinləyici qismində iştirak etmirlər. Bu zaman mübahisənin həll olunması zamanı əsas səlahiyyət məhkəməyə məxsus olur. Mübahisələrin həllinin oxşar üsullarına gəldikdə isə nəzərdə tutulur ki, mübahisənin həlli yolunda tərəflər kənar müdaxilələr olmadan özləri cəhd etməlidirlər. Bu üsullardan hansısa birinin tətbiq edilməsi onlar arasında razılığın yaranmasına şərait yaradır.

Belə qənaətə gəlmək olar ki, prosedur növləri çoxdur. Ancaq buna baxmayaraq xarici ölkələrin təcrübəsinə əsasən demək olar ki, mübahisələrin və münaqişələrin həll olunmasının başlıca alternativ yollarına adətən danışıqlar, mediasiya və münsiflər məhkəməsi aid edilir.

Danışıqlar - mübahisələrin və münaqişələrin alternativ həlli yolları arasında mühüm yer tutur. Alternativ həll yolu olan danışıqlar (negotiation) - mübahisənin kənardan heç kimin iştirakı olmadan sadəcə tərəflərin özləri arasında həll edilməsi formasıdır.

Vasitəçilik (mediasiya) - mübahisənin həll edilməsi zamanı razılıq əldə edilməsində tərəflərə kömək göstərən müstəqil, heç kəsə tərəf çıxmayan vasitəçinin köməyi ilə həll edilməsidir. Mübahisə məhkəmədə həll olunan zaman yekunda qalib və məğlub olur. Amma mediasiyada heç kim məğlub sayılmır, çünki mediasiya mübahisəli tərəflərin bir-birilə razılığa gəlməsi deməkdir. Vasitəçinin neytrallığı

baxımından mediasiya mübahisələrin həllində daha perspektivli alternativ üsul hesab edilir. Belə ki, məhkəmə qərarı dövlət adından verildiyindən onun tətbiqi tərəflər üçün məcburi xarakterlidir. Lakin mediasiyada razılığa gəlinməsi o deməkdir ki, öhdəlik tərəflərin öz aralarındadır. Bu üsulun əsas üstünlüyü iqtisadi sferadadır. Çünki sahibkarlıq mübahisələrinin məhkəmə icrası onun imicinə, işgüzar nüfuzuna mənfi rəy formalaşdırır. Lakin mediasiyada bütün mübahisələr konfedensiallıq daşıyır. Burada müəssisənin mübahisə tərəfi qismində olub-olmamağı belə gizli şəkildə qalır. Bir digər üstünlüyü isə mübahisələrin həllində müddət amilidir. Məhkəmə prosesi bir, bir neçə ilə qədər uzana bildiyi təqdirdə, mediasiyada ümumi nəzərdə tutulan müddət bir aydır. Mübahisələrin məhkəmədə icraatı zamanı tərəflərin maraqları nəzərə alınmır. Qanun və sübutlar dairəsində qərar verilir. Mediasiyada isə hər iki tərəfin maraqları nəzərə alınır. Bir digər nüans kimi, mediasiya üsulu ilə maddi resurslara qənaəti də qeyd edə bilərik. Müsəssisələr məhkəməyə müraciət edərkən, bu zaman həm iddianın məbləğinə görə fərqli (iddia məbləği artdıqca rüsum da artır) ödənişlər edirlər, həm də məhkəmə prosesi ərzində ixstisaslaşmış hüquqşünasın dəstəyi üçün ödəniş edirlər. Lakin mediasiya prosesində bu xərclər dəfələrlə azdır. Mediasiyada mübahisə tərəfləri bir-biri ilə düşmən münasibətində olmur. Bu isə deməyə imkan verir ki, bu yolla sahibkarlıq sferasında doğru iş mühiti formalaşır, danışıqlar mədəniyyəti yaranır.

Münsiflər məhkəməsi - mübahisələrin alternativ həlli növlərindən biridir və bu üsul fikir ayrılıqlarının tərəflər üçün məcburi qərar vermək səlahiyyətinə malik olan neytral şəxsin – münsifin və yaxud münsiflər qrupunun köməyi ilə icra olunur.

Mübahisələrin həlli üçün göstərilən alternativ üsullardan hansının tətbiq edilməsi mübahisənin xüsusiyyətindən, prosesin hansı səviyyədə olmasından, qanunvericiliyin tələbindən və həmçinin tərəflərin arzu və istəyindən asılıdır. Danışıqlar alternativ üsulunda mübahisənin həlli zamanı kənar şəxslər iştirak etməməlidir, tərəflərin özləri öz aralarında razılığa gəlirlər. Ona görə də ilk növbədə bu üsula daha çox təşəbbüs göstərilir. İxtiyari bir neytral vasitəçinin iştirakına ehtiyac yarandıqda isə, mediasiyadan istifadəyə üstünlük verilir.

Çox təəssüf ki, Azərbaycanda mübahisə və münaqişələrin alternativ həlli üsullarının geniş tətbiq olunması təcrübəsi mövcud deyildir. Qanunvericilikdə bir çox alternativ həll üsulları öz əksini tapıb, lakin onlardan istifadəyə demək olar ki, rastlanmır (qismən).

Beləki, Əmək Məcəlləsində razılaşdırıcı komissiya, vasitəçi, əmək arbitrajı, MM-də barışıq, münsiflər məhkəməsi kimi üsullar təsbit olunsa da bununla bağlı istifadə təcrübəsi azdır. Belə düşünmək olar ki, mübahisələrin alternativ həlli yollarından əhatəli istifadə olunmaması bir sıra faktorlarla bağlıdır. Bura mübahisələrin alternativ həll yollarının tətbiqinə təminat verən zəruri hüquqi mexanizmlərin olmaması, mübahisələrin alternativ həlli ilə bağlı ənənənin öz təsdiqini tapıb formalaşmaması, mübahisələrin həllinin alternativ üsullarının mahiyyəti və əhəmiyyəti barədə sahibkarlıq subyektlərinin informasiyaya yetərincə malik olmaması, sahibkarlıq münasibətlərinin inkişafına mane olan halların tamamilə aradan qaldırılmaması kimi faktorları aid etmk olar. Bu maneələrin aradan qaldırılması yolunda əməli işlərin görülməsinə zəruri ehtiyac var.

"Münsiflər məhkəməsi haqqında" qanun qəbul edilməsinə də ehtiyac vardır. Baxmayaraq ki, qanunvericilikdə münsiflər məhkəməsi vasitəsilə mübahisələrin həllinin mümkünlüyü nəzərdə tutulub, amma təcrübədə istifadəsinə rast gəlmirik. Münsiflər məhkəməsi ilə bağlı reqlamentləşdirici rəsmi sənədin olmaması səbəb kimi qeyd oluna bilər. Bunu əsas götürərək hesab edirik ki, münsiflər məhkəməsinin təşkil olunmasına və fəaliyyətini nizamlayan qanunun qəbul olunmasına ehtiyac var.

"Mediasiya haqqında" Qanunun qəbul edilməsinə ehtiyac var. Təcrübə göstərir ki, bizdə sahibkarlıq subyektlərinin tərəf olduqları mübahisələrin yaranmış münaqişədə marağı olmayan, neytral üçüncü tərəfin iştirakı ilə həllinə o qədər də təşəbbüs göstərilmir. Bu prosesə məhkəmə öncəsi bir növ arayış almaq kimi yanaşırlar. Bunun əsas səbəblərindən biri mübahisələrin alternativ həll üsulları ilə bağlı informasiyanın kifayət qədər olmamasıdır. Başqa bir əsas səbəb isə həmin üsulların, xüsusən də mediasiya prosedurunun həyata keçirilməsi qaydalarını tənzimləyən normativ sənədlərin olmamasıdır.

Artıq bir çox dövlətlərdə mediasiya haqqında qanunlar qəbul edilib və uğurla tətbiq olunur. Son illərin statistikası onu göstərir ki, mübahisələrin neytral vasitəçinin köməyi ilə həlli daha çox yer almaqdadır. Mediatorların hazırlığı istiqamətində xüsusi proqramlar hazırlanmalı və həyata keçirilməlidir. Mediasiya haqqında qanunun qəbul olunması ilə yanaşı mediatorların hazırlığına da xüsusi diqqət yetirilməlidir. Bu uğurlu vasitəçilik üçün başlıca şərtdir.

Son olaraq onu qeyd edə bilərik ki, mübahisələrin həllinin alternativ yollarından istifadə olunması məhkəmələrin üzərinə düşən yükün azaldılmasına da nəzərəçarpacaq dərəcədə təsir göstərə bilər. Hal-hazırda məhkəmələrin üzərinə düşən iş çox ağırdır.  Bu isə məhkəmə işinin keyfiyyətinə öz mənfi təsirini göstərməkdədir.

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Sahibkarlıq fəaliyyəti və onun subyektlərinin hüquq va qanuni maraqlarının müdafiəsi ilə əlaqədar olan məsələlərin araşdırılması bir sıra əhəmiyyətli nəticələrə gəlməyə əsas verir. Sahibkarlıq fəaliyyətini həyata keçirən fərdi sahibkar Azərbaycan Respublikasının vətəndaşı kimi Konstitusiyada və digər qanunvericilik aktlarında nəzərdə tutulduğu kimi hər növ əmlak və qeyri-əmlak hüquqlarına malikdirlər. Bu subyektlərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyində çoxsaylı normaların olması müsbət hal kimi qiymətləndirilməlidir. Lakin həmin normaların və xüsusən də qanunların özlərinin effektiv icra mexanizminin işlənib hazırlanması və tətbiqinin təmin olunmasına diqqət etmək daha məqsədəuyğun olardı. Yani sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsinin həyata keçirilməsi, onların hüquqlarının üçüncü şəxslər tərəfindən pozulmasının qarşısının alınması ilə bağlı tədbirlər planının tətbiq edilməsi daha doğru olardı.

Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin mülki hüquqi müdafiəsinə mənfi təsir göstərən amillərdən biri də onların hüquqi biliklərinin aşağı səviyyədə olmasıdır. Bu baxımdan bəzi hallarda onlar öz hüquqlarını və qanuni mənafelərini müdafiə edə bilmirlər və bununla bağlı fəaliyyətləri prosesində, habelə öz hüquqlarının məhkəmə müdafiəsi zamanı müəyyən çətinliklərlə rastlaşırlar. Ona görə də respublikanın ərazisində fəaliyyət göstərən sahibkarların zəruri qanunvericilik aktları ilə təmin edilməsi lazımdır.

Müasir dövrdə Azərbaycana yeni tip - istehsal, maliyyə və ticarət sahəsində bacarıqlı təşkilatçı, fərdi və ictimai maraqları harmonik şəkildə uzlaşdıra bilən, ədalətli maddi mükafatlandırmanı və ictimai tanınmanı "asan qazanc"dan üstün tutan sahibkarlar lazımdır. Bu baxımdan sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin mülki-hüquqi müdafiəsi real şəkildə həyata keçirilməlidir. Eyni zamanda müasir şəraitdə sahibkarlığın öz sosial funksiyasını və təyinatını yerinə yetirməsi üçün onun rolu və əhəmiyyəti həm cəmiyyət, həm də dövlət tərəfindən dərk edilməlidir. Sahibkarlıq fəaliyyəti subyektlərinin təhlükəsizliyini təmin etmək üçün hüquq mühafizə orqanlarının hüquq qaydasının

möhkəmləndirilməsinin müxtəlif növləri ilə məşğul olan qeyri-strukturları ilə koordinasiya şəklində fəaliyyət göstərməsi zəruridir. Buna görə də hüquqi səviyyədə nəinki informasiya mübadiləsi, həm də birgə texniki dövlət mühafizə sistemlərinin yaradılması, texniki müdafiə üzrə milli standartların, kadrların hazırlığı və yenidən hazırlığı ilə əlaqədar birgə tədris proqramlarının hazırlanması və həyata keçirilməsi məsələlərinin yenidən işlənib hazırlanması zəruridir. Eyni zamanda məlumdur ki, sahibkarlıq fəaliyyəti subyektləri öz fəaliyyətləri dövründə müxtəlif maddi itkilərlə bağlı risklərlə rastlaşırlar. Bu baxımdan hesab edirik ki, sahibkarlıq fəaliyyəti subyektlərinin müxtəlif risklərlə bağlı uğursuzluqlarını maliyyələşdirən və həvəsləndirən təminatlı maliyyə təşkilatları formalaşdırılmalıdır. Azərbaycan Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin mülki-hüquqi müdafiəsinə mənfi təsir göstərən amillərdən biri də onların hüquqi biliklərinin aşağı səviyyədə olmasıdır. Bu baxımdan bəzi hallarda onlar öz hüquqlarını və qanuni mənafelərini müdafiə edə bilmirlər va bununla bağlı fəaliyyətləri prosesində, habelə öz hüquqlarının məhkəmə müdafiəsi zamanı çətinliklərlə rastlaşırlar. Ona görə də respublikanın ərazisində fəaliyyət göstərən sahibkarların zəruri qanunvericilik aktları ilə təmin edilməsi və bununla bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi məqsədəmüvafiq olardı.

Hazırda sahibkarlıq fəaliyyəti subyektləri tərəfindən əmlak hüquqlarının müdafiəsi üçün irəli sürülən iddialar arasında rəqabətin olması belə izah edilə bilər ki, mülki qanunvericilik normaları bu iddiaları dəqiq və konkret şəkildə tənzimləmir. Bu da onunla nəticələnir ki, sahibkarlıq fəaliyyətinin subyektləri öz əmlak və ya əşya hüquqlarını hansı növ iddianı irəli sürərək müdafiə edəcəyini bilmir. Bu səbəbdən, mülki qanunvericilikdə mövcud olan bu cür ziddiyyətli müddəalar ləğv edilə və iddialara uyğun qaydada əlavələr edilə və dəyişikliklər oluna bilər.

Sahibkarlığın dövlət tərəfindən qorunması, istiqamət verilməsi və həvəsləndirilməsi, sahibkarlığın səmərəli fəaliyyəti üçün bazar iqtisadiyyatı modelinə əsasən hüquqi mexanizmlər yaradılmalıdır. Bunun üçün isə öncə mülki münasibətlərə əsaslanan dəqiq və əhatəli qanunvericilik bazası formalaşdırılmalı, sahibkarlıq subyektlərinin fəaliyyətinin hüquqi təminatı yaradılmalı, həmçinin

sahibkarlığın dövlət tənzimlənməsinin hüquqi əsasları qorunmalıdır. Hesab edirəm ki, sahibkarlığın dövlət tərəfindən hüquqi tənzimlənməsində aşağıdakı prinsiplər əsas götürülə bilər:

1. İqtisadi qanunlar, hüquq normaları ümumi, konkret və daimi xarakterli olmalıdır;
2. Müvafiq iqtisadi qanunlar sahibkarlıq subyektlərinə münasibətdə ayrıseçkilik yaratmamalı, eyni fəaliyyəti həyata keçirən bütün təsərrüfat subyektlərinə aid edilməlidir;
3. Qanunlar sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin şəraitini təmin edərkən, şərait daxilində onların şəxsi qərarlarını məhdudlaşdırmamalıdır;
4. Qanunlarda biri digərini inkar edən normalar olmamalı, dəyişikliklər və ya əlavə edilənlər də mövcud qanunlarla ziddiyət təşkil etməməli, sahibkarlığın hüquqi bazasının yaxşılaşdırılmasına xidmət etməlidir;
5. Sahibkarlığın hüquqi bazası möhkəm sosial təminata malik olmalıdır, yəni qanunlarda əks olunan müddəalara subyektlər tərəfindən etimad göstərilməlidir.

Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi, bütövlükdə sahibkarlığın inkişafı baxımından vergilərin stimullaşdırıcı rolu lazımınca dəyərləndirilməli, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması istiqamətində dövlət yeni hüquqi tənzimləmə siyasəti həyata keçirməlidir. Bununla bağlı olaraq əsasən istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlıq fəaliyyəti subyektlərinə güzəştli və müddətli vergi sisteminin tətbiqinə üstünlük verilməlidir.

Mübahisələrin alternativ həlli üsulları ilə bağlı sahibkarlıq subyektlərini yetərincə məlumatlandırmaq lazımdır. Çünki mübahisələrin həllinin alternativ üsulları ilə bağlı sahibkarlıq subyektlərinin məlumatlılığı kifayət deyil. Əsas səbəb kimi bunu qeyd etmək olar ki, mübahisələrin həllinin alternativ yollarına az müraciət olunur. Əsasən də kiçik və orta sahibkarlıq subyektlərinin məlumatlılıq səviyyəsi daha aşağıdır. Bu problemin həll olunması üçün aidiyyatı qurumlar tərəfindən

maarifləndirmə proqramlarının hazırlanmasını və həyata keçirilməsini məqsədyönlü hesab etmək olar.

Bu təkliflərin həyata keçirilməsi sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni maraqlarının mülki-hüquqi müdafiəsinin problem məsələlərinin gələcəkdə də nəzəri baxımdan araşdırılması üçün əsas baza kimi çıxış edə bilər. Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi mexanizmlərinin inkişaf etdirilməsi, hüquqi bazanın hərtərəfli formalaşdırılması üçün əhəmiyyət kəsb edə, o cümlədən qanunverici orqan tərəfindən nəzərə alına bilər.

# BİBLİOQRAFİYA


1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2015, 337 s.

2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 100 s.

3. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanun

4. "Kütləvi informasiya vasitələri haqqında" qanun

5. "Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 14 may 1999-cu il tarixli 7 №-li qərarı

6. Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı, Bakı 2000, №383

7. S.X.Aslanov. Sahibkarlıq hüququ. Bakı: Digesta nəşriyyatı 2019, 496 s.

8. Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2013, 715 s.

9. Q.N.Manafov. Sahibkarlıq nəzəriyyəsi. Bakı: İqtisad Universiteti nəşriyyatı 2011, 158 s.

10. V.Niftullayev. Sahibkarlığın əsasları. Bakı: Zaman nəşriyyatı 2022, 609 s.

11. F.H.Qasımov, İ.H.İsmayılov, L.F.Qasımova. Sahibkarlığın əsasları. Bakı 2008, 602 s.

12. A.D.Babayeva. Mülkiyyət hüququnun müdafiəsi üsulları, 2015, №4, səh 50-56

13. Allahverdiyev S. S. Azərbaycan Respublikasının mülki hüququ. I cild, I kitab. Ümumi hissə. Dərslik. Bakı: Digesta, 2003, 976 s.

14. Əliyev V.M. Sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni mənafelərinin mülki-hüquqi müdafiəsi, Bakı 2010, 145 s.

15. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının Qərarı. İş № 2(102)-1186/2022

16. Azərbaycan Respublikası 1 saylı Yerli İqtisad Məhkəməsinin arxivi, iş №2774/1-216/2008

17. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının Qərarı İş № 2(102)-5524/2021

18. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fərdi şikayətlər üzrə qərarlarının toplusu. Bakı: Hüquq ədəbiyyatı, 2005, 774 s.

19. Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının toplusu. Mülki işlər üzrə məhkəmə kollegiyası. Bakı, 2004, 606 s.

20. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi qərarlarının toplusu. Bakı: Hüquq ədəbiyyatı, 2008, 850 s.

21. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlar məcmuəsi. Bakı: Hüquq ədəbiyyatı, 2008, 380 s.

22. Məhərrəmov A.M. Sahibkarlıq: nəzəriyyədən praktikaya. Bakı: Nurlan, 2009, 360 s.

23. Hacıbəyli Ə.B. Mülki hüquq məsuliyyəti. Bakı: Patronat – S, 2003, 172 s.

24. Hacıbəyli Ə.B. Mülki hüququn aktual məsələləri. Bakı, 2004, 123 s.

25. Abbasov R.Q. Şərəf, ləyaqət və işgüzar nüfuzun mülki-hüquqi müdafiəsi. Bakı: Araz, 2002,156 s.

26. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. I cild. Bakı: Digesta, 2001, 1038 s.

27. Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2004, 451s.

28. Məmmədov Z.Ə. Mənəvi zərərə görə kompensasiya tələbinə baxılmasının prosessual xüsusiyyətləri. Bakı, 2007, 24 s.

29. Алексеев С.В. Правовое регулирование предпринимательской деятельности: Учебник. Пособие для вузов. М.: Юнити-Дана, Закон и право. 2004, 416 с.

30. Ерошенко А.А. Личная собственность в гражданском праве. М.: Юридическая литература, 1973, 288 с.

31. Анисимов А.Л. Гражданско-правовая защита чести, достоинства и 85. делевой репутации по законодательству Российской Федерации: Учеб. пособие. М.: Владос-Пресс, 2001, 246 с.

32. Суханов Е.А. Право собственности и иные вещные права в России / Суханов Е.А., Матеи У.Р. Основные положения права собственности. М:Юристъ, 2006, 468 с

33. Лунч Л.А. Новицкий И.Б. Общее учение об обязательстве. М: Госюриздат, 1950. 298 с.

34. Брагинский М.И. Витрянский В.В. Договорное право. Книга первая. Общие положения. М: Статут, 2001, 942 с.

35. Власов А.А. Проблемы судебной защиты чести, достоинства и деловой репутации. Автореф. ... ... докт. юрид. наук. М, 2000, 53 с.

36. Хохлов В.В. Бородин В.В. Понятие юридического лица: история в современная трактовка // Государство и право, 2003, с. 152-156

37. Величко Д.А. Гражданско-правовые основы предпринимательской деятельности в Российской Федерации. Автореф. дисс... канд. юрид. наук. М., 2003, 24 с.

38. Фаддеева Т.А. Нематериальные блага и их защита // Гражданское право: Учебник. Т.1 / Отв. ред. Сергеев А.П., Толстой Ю.К. М.: Проспект, 2004, с. 380-387

39. Малеина М.Н. Нематериальные блага и перспективы их развития // Закон, 2005, № 10, с. 100-105

40. Голубев К.П. Нарижний С.М. Защита деловой репутации юридических лиц // Российская юстиция, 1999, № 7, с. 24-29

41. Миникаев С.Р. Гражданско-правовая защита прав и законных интересов субъектов предпринимательской деятельности. Автореф. дисс... канд. юрид. наук. М, 2005, 25 с.

42. Поляков И.Н. Ответственность по обязательствам вследствие причинения вреда. М.: Гордец, 1998, 304 с.

43. Сергеев А.П. Способы защиты гражданских прав / Гражданское право: Учебник. Т.1 / Отв.ред. А.П. Сергеев, Ю.К. Толстой. - М: Проспект, 2004, с. 341-346

**İnternet resursları**

44. http://www.lawreforм.az/index.php?мodule=news&naмe=view&id=931&lang=az

45. https://constcourt.gov.az/az/decision/104

46. https://e-qanun.az/fraмework/356

47. https://www.legalreform.az/suggestion/20

48. https://supremecourt.gov.az

49. https://www.meclis.gov.az/